RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 210 (9377) 28 SENTYABR 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəyməyib

**Prezident İlham Əliyev ABŞ Prezidentinin xüsusi nümayəndəsini, Dövlət katibinin köməkçisini və Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.

→ 2

## Dünya Məskunlaşma Günü Azərbaycanda qeyd ediləcək

**Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul edib.

→ 2

# Şəhidlərimizin əziz xatirəsi əbədiləşdirilir




## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar

**Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım parkın girişində xatirə daşının önünə gül dəstələri qoydular.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Ötən müddətdə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

→ 2




# Oğullar Vətən oldu

## 192 igid Azərbaycanın ərazi bütövlüyünə əbədilik möhürünü vurdu

2023-cü ilin son baharında 192 igid oğul Azərbaycanın ərazi bütövlüyünə əbədilik möhürü vurub sonsuzluğa qovuşdu....

Bu azman ərənlər anamız Azərbaycana canlarını qurban verən minlərlə müqəddəs şəhidimizin şərəf cərgəsinə qoşuldular...

Bu cənnət ətirli şəhidlər ruhlarıyla Tanrı dərgahına üz tutub əbədiyyət üfüqündə doğan günəşlərə çevrildilər...

Qanlarıyla, canlarıyla doğma torpağa qovuşub Vətən oldular...

Azərbaycan xalqının and ünvanına, qürur mənbəyinə döndülər...

❖ ❖ ❖

İgid oğullar özlərini Vətənə qurban dedilər, Ana torpağın qucağında uyumağı özlərinə şan-şərəf bildilər…

"Canımız sənə fəda" hayqıraraq düşmən üzərinə yeriyən azman igidlər ölümə meydan oxudular…

Vətən çağıranda yer-yerdən hay verən Polad Həşimovlar, Mübariz İbrahimovlar, Fərid Əhmədovlar, Raqif Orucovlar, Əbubəkr İsmayılzadələr, Təbriz Musazadələr, İlqar Mirzəyevlər, Anar Əliyevlər, Xudayar Yusifzadələr, Ruslan Abbasovlar, Murad Axundovlar, Xəzər Cəfərovlar oldular…

Qurd ürəkli oğullar Odlar yurdu Azərbaycanın müdafiəsinə qalxdılar, sinələrini düşmən gülləsinə sipər etdilər…

❖ ❖ ❖

2020-ci il sentyabrın 27-də Zəfər yürüşünə çıxan azman igidlərin qisas nərəsi dağları, daşları lərzəyə saldı, od saçan baxışları mənfur düşmənin köksünə ox kimi sancıldı...

→ 10

## 434295 döyüş sursatı, 61 artilleriya silahı, 26 zirehli texnika...

### Antiterror tədbirləri qeyri-qanuni erməni silahlı dəstələrinin tam məhvi ilə nəticələndi




→ 13

# Şəhidlərimizin əziz xatirəsi əbədiləşdirilir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar












*Əvvəli 1-ci səh.*

8 Noyabr prospektində inşa olunan Zəfər parkı doqquz hektardan çox ərazini əhatə edəcək. Əraziyə girişdə 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edəcək. Giriş portalındakı tağın hündürlüyü 44, eni isə 22 metr olacaq. Tağın üzərində Vətən müharibəsi qəhrəmanlarının adları həkk ediləcək. Tağın üst hissəsindəki ağac elementi böyüyən Azərbaycan, pöhrələnmə, firavanlıq, yeni həyata və Qələbəyə aparan simvolik yol təsəvvürü yaradacaq.

Zəfər Muzeyinin əsas girişində yaradılacaq "dəmir yumruq" simvolunun üzərində Qələbənin tarixi qeyd ediləcək. "Dəmir yumruq" zəfərin əsasında dayanan Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi olacaq. Muzeyin divarında Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş əsgər və zabitlərimizin adları həkk ediləcək.

Parka doğru keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə iki güclü əlaməti - Zəfər Gününü və sonsuzluğun rəmzi kimi sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər parkında həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası, parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası nəzərdə tutulur. Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri və oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan bayrağı dalğalanacaq. Azadlıq Bayrağı Meydanına gedən yol Vətən müharibəsinin rəmzi kimi 44 bürünc döşəmədən ibarət olacaq.

# Antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəyməyib

### Prezident İlham Əliyev ABŞ Prezidentinin xüsusi nümayəndəsini, Dövlət katibinin köməkçisini və Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilmiş antiterror tədbirləri nəticəsində yaranmış hazırkı vəziyyət barədə fikir mübadiləsi aparıldı.

Yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələri və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsi də toplanmış silah və hərbi texnikaya baxıblar.

Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah edildiyini deyən Prezident İlham Əliyev onların Azərbaycan ərazisindən çıxarılması prosesinin həyata keçirildiyini bildirdi.

Azərbaycan Prezidenti qeyd etdi ki, antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəyməyib, hədəf ancaq qanunsuz erməni silahlı birləşmələri və hərbi obyektlər olub.

Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarına toxunan Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, onların da hüquqları ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin ediləcək.

Dövlət başçısı qeyd etdi ki, Azərbaycanın nümayəndələri ilə Qarabağın erməni sakinlərinin təmsilçiləri arasında reinteqrasiya istiqamətində dialoq aparılır.

Ərazidə infrastrukturun bərpası ilə bağlı işlərin aparıldığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın erməni sakinlərə humanitar yardımlar göndərdiyini bildirdi, yardımların göstərilməsi ilə bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə də əməkdaşlığın həyata keçirildiyini dedi.

Dövlət başçısı qeyd etdi ki, rəsmi Bakı ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə hazırdır.

Söhbət zamanı bölgədə sabitliyin təmin edilməsi və yerli ermənilərlə dialoqun vacibliyi vurğulandı.

# Dünya Məskunlaşma Günü Azərbaycanda qeyd ediləcək

### Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Maimuna Mohd Şərifin ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı İkinci Azərbaycan Milli Şəhərsalma Forumunun keçirilməsinin müsbət addım olduğunu dedi, ötən il Ağdam şəhərində birinci forumun uğurla təşkil edildiyini vurğuladı. Azərbaycan Prezidenti Zəngilanda keçiriləcək builki forumun gündəliyinin çox zəngin olduğunu bildirdi, bu tədbir çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin arxitektura və şəhərsalma üzrə nazirlərinin toplantısının baş tutacağını qeyd etdi.

Prezident İlham Əliyev Dünya Məskunlaşma Gününün də Azərbaycanda qeyd ediləcəyinin müsbət addım olduğunu dedi.

Maimuna Mohd Şərif ölkəmizin təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyi və verdiyi maliyyə yardımlarını müsbət addım kimi qiymətləndirdiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev təşkilatın fəaliyyətinin Azərbaycan dövləti tərəfindən bundan sonra da dəstəklənəcəyini qeyd etdi.

UN-HABITAT tərəfindən "ağıllı şəhər" konsepsiyasının müxtəlif aspektləri üzrə görülən işlər barədə məlumat verən qonaq ölkəmizin Dünya Məskunlaşma Günü ilə bağlı keçiriləcək tədbirə evsahibliyi etməsinə görə minnətdarlığını bildirdi. O, Zəngilanda keçiriləcək İkinci Azərbaycan Milli Şəhərsalma Forumunun əhəmiyyətinə toxundu, bu tədbirin urbanizasiya ilə bağlı dünyada gedən proseslərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Bu yaxınlarda Nyu Yorkda Dayanıqlı İnkişaf Məqsədləri Sammitində iştirakına toxunan Maimuna Mohd Şərif həmin tədbirdə iqlim dəyişikliyi və urbanizasiya məsələləri ilə bağlı geniş fikir mübadiləsinin aparıldığını və bu mövzuların Azərbaycanda həyata keçirilən işlərlə də sıx bağlı olduğunu vurğuladı.

İqlim dəyişikliyi və urbanizasiyanın Azərbaycan üçün çox mühüm məsələlər olduğunu bildirən dövlət başçısı BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunun ölkəmizə keçənilki səfərindən ötən müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı yenidənqurma işlərinin həyata keçirildiyini bildirdi. Keçmiş məcburi köçkünlərin artıq 2 şəhər və 3 kəndə yerləşdirildiyini və bu prosesin davam etdirildiyini vurğulayan Prezident İlham Əliyev Maimuna Mohd Şərifin ölkəmizə səfəri zamanı bu sahədə gedən işlərlə yaxından tanış olacağına ümidvarlığını ifadə etdi.

İqlim dəyişikliyi məsələsinə toxunan Azərbaycan Prezidenti bərpaolunan enerji sahəsində ölkəmizdə görülən işlərin də bu məsələyə töhfə verdiyini vurğuladı, işğaldan azad edilmiş ərazilərimizdə 500 meqavata yaxın günəş və külək enerjisinin istehsalı ilə bağlı 2 layihənin icra olunduğunu bildirdi.

# Azərbaycan Türkmənistanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir

## Türkmənistanın Prezidenti zati-aliləri cənab Sərdar Berdiməhəmmədova

Hörmətli Sərdar Qurbanquliyeviç!

Türkmənistanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Qardaş Türkmənistan bu gün sosial-iqtisadi sahədə böyük uğurlara nail olmuş, hər cəhətdən çiçəklənən bir diyara çevrilmişdir. Biz ortaq tarixi-mədəni köklər, qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk.

Hazırda səmərəli əməkdaşlığımızın əhatə dairəsinin daha da genişləndirilməsi üçün yaxşı perspektivlər vardır. İnanıram ki, ənənəvi dostluq və əməkdaşlıq münasibətlərimiz, qarşılıqlı inam və dəstəyə əsaslanan strateji tərəfdaşlığımız birgə səylərimizlə xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və dərinləşəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 sentyabr 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Tarixi hadisə - Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün tam bərpa olunması münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. 2012-ci ildən 2015-ci ilədək Azərbaycanda işlədiyim müddətdə Qarabağdan - öz yurdlarından didərgin düşmüş çoxlu sayda insanla görüşmək imkanım oldu. Mən onların dərin duyğularını və öz torpaqlarına qayıtmalarının əhəmiyyətini başa düşürəm.

Qarabağdakı son hadisələr bir çox yeni başlanğıclar vəd edir. Sizin belə çətin bir problemin həllinə siyasi baxışınız və strateji yanaşmanız, həqiqətən, təqdirəlayiqdir və şübhəsiz ki, bunun önəmli nəticələri özünü göstərəcək. Əminəm ki, bu əlamətdar hadisə regionda sülhün və əməkdaşlığın möhkəmlənməsinə və nəticədə bütün Cənubi Qafqazda həyat şəraitinin yaxşılaşmasına mühüm töhfə verəcək. Sizin liderliyiniz və tarixi baxışı reallığa çevirməkdə sarsılmaz əzminiz hamımız üçün ilham mənbəyidir. Mən qəti şəkildə inanıram ki, ümumi səylərlə biz gələcək nəsillərimiz üçün daha yaxşı bir dünya qura bilərik.

Sizə və ölkənizə davamlı uğurlar və rifah arzulayıram.

*Hörmətlə,*

***Kiril QABURİÇİ,***
***2015-ci ildə Moldovanın Baş naziri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tam bərpa olunması münasibətilə təbrik edirəm.

Mən etnik ermənilərin ölkənizdə qalıb öz həyatlarına davam etmələri və ya ərazini sərbəst şəkildə tərk etmələri üçün lazımi şəraitin yaradılması ilə bağlı Azərbaycanın addımını alqışlayıram.

Həmçinin mən Azərbaycanın Kosovo və Metoxiya məsələsində Serbiyaya göstərdiyi prinsipial və ardıcıl dəstəyə görə dərin minnətdarlığımı bildirirəm.

Sizə Ermənistan ilə sülh prosesini başa çatdırmaq üçün göstərdiyiniz səylərdə uğurlar arzulayıram.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Vuk YEREMİÇ,***
***Serbiyanın sabiq xarici işlər naziri,***
***BMT Baş Assambleyasının 67-ci sessiyasının sədri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Zəfər parkında olublar

Sentyabrın 27-də - Anım Günündə Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının məsul əməkdaşları, Gənclər Birliyinin üzvləri, partiyanın Bakı şəhəri üzrə rayon təşkilatlarının nümayəndələri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə saat 12:00-da Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Sonra YAP nümayəndələri Zəfər parkının girişində xatirə daşının önünə gül dəstələri düzüb, qəhrəman Vətən övladlarını dərin hörmət və ehtiramla anıblar.

# Dövlət və hökumət rəsmiləri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar









27 Sentyabr - Anım Günü ilə əlaqədar sentyabrın 27-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.

AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmiləri xatirə daşının önünə gül dəstələri düzərək şəhidlərin əziz xatirəsini ehtiramla anıblar.





# Azərbaycan normallaşma istiqamətində səylərini bundan sonra da davam etdirəcək



Xarici İşlər Nazirliyində 27 Sentyabr - Anım Gününə həsr olunmuş anım tədbiri və qanvermə aksiyası keçirilib.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, anım tədbirində nazirliyin rəhbər heyəti, əməkdaşları, həmçinin 44 günlük Vətən müharibəsi şəhidlərinin ailə üzvləri iştirak ediblər. Əvvəlcə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Anım tədbirində çıxış edən xarici işlər naziri Ceyhun Bayramov müasir tariximizin ən şanlı səhifələrindən biri olan 44 günlük Vətən müharibəsi nəticəsində 30 ilə yaxın erməni işğalına son qoyulduğunu, ərazi bütövlüyümüzlə yanaşı, tarixi ədalətin və beynəlxalq hüququn bərpa olunduğunu diqqətə çatdırıb. Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi Azərbaycan Ordusunun bu qəhrəmanlıq salnaməsinin tariximizə qızıl hərflərlə həkk olunduğu vurğulanıb.

Torpaqlarımızın işğalı ilə barışmayan Azərbaycanın məsələnin sülh yolu ilə həllini tapması üçün daim çalışdığı, lakin Ermənistanın danışıqların imitasiyası ilə məşğul olduğu, habelə hərbi-siyasi təxribatlarını davam etdirdiyi bildirilib. Məhz Ermənistanın növbəti təxribatına cavab olaraq başlayan 44 günlük Vətən müharibəsi dövründə də təxribatların davam etdirildiyi, xalqımızın birliyini və həmrəyliyini pozmaq məqsədilə dəfələrlə mülki əhaliyə qarşı hücumlar və müharibə cinayətləri törədildiyi qeyd olunub.

Nazir müharibənin və münaqişənin bitməsinə baxmayaraq, ölkəmizin 3 il əvvəl Ermənistana sülh təklif etdiyini, sülh prosesinin irəlilədilməsi istiqamətində səy göstərdiyini, Ermənistanın isə bunun qarşılığında yenə də 30 ilə yaxın işğal dövründəki təcrübəni təkrarladığı, sözdə ərazi bütövlüyümüzü tanıdığını bildirsə də, əməldə bunun əksinə olaraq, təxribatları və mina təhdidini davam etdirdiyini diqqətə çatdırıb. Bu xüsusda, Ermənistanın növbəti təxribatlarının qarşısının alınması üçün ölkəmizin lokal antiterror tədbirləri gördüyü, bu tədbirlər nəticəsində ərazilərimizdə 30 illik işğal dövrünün qalıqları olan qeyri-qanuni erməni silahlı qüvvələrinin varlığına son qoyulduğu, habelə ərazilərimizdəki dəhşətli hərbiləşmənin miqyasının üzə çıxdığı vurğulanıb. Ölkəmizin bundan sonra da normallaşma və sülh gündəliyinin irəli aparılması istiqamətində qətiyyətli şəkildə səylərini davam etdirəcəyi, gələcəyə baxışımızın sülh üzərində qurulduğu vurğulanıb.

Bugünkü postmünaqişə dövrünün reallıqlarının, torpaqlarımızın azad edilməsinin isə şəhidlərimizə borclu olduğumuz, onların əziz xatirəsinin daim qəlbimizdə yaşayacağı bildirilib.

Sonra 44 günlük Vətən müharibəsinə həsr edilmiş, Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının birgə istehsalı olan "BİZ" tarixi-sənədli filmi nümayiş etdirilib.

Anım tədbirindən sonra Xarici İşlər Nazirliyi və Səhiyyə Nazirliyinin Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankının birgə təşkilatçılığı, XİN rəhbərliyi və əməkdaşlarının iştirakı ilə qanvermə aksiyası keçirilib.

Daha sonra Xarici İşlər Nazirliyinin rəhbər heyəti Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin tikildiyi ərazini ziyarət edib və ərazinin girişində xatirə daşının önünə gül dəstələri qoyub.

# Azərbaycan və Rusiyanın XİN başçıları regiondakı cari vəziyyəti müzakirə ediblər



Sentyabrın 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Azərbaycan və Rusiya arasında mövcud əməkdaşlıq gündəliyi, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, habelə regionda cari vəziyyət müzakirə olunub. Nazir Ceyhun Bayramov Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası üzrə dialoqa sadiqliyini, ölkəmizin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün kompleks tədbirləri davam etdirəcəyini diqqətə çatdırıb.

Azərbaycan ərazilərində qondarma rejimin buraxılması və erməni silahlı qüvvələrinin tərk-silahı, habelə Azərbaycan ərazilərindən çıxarılması işinin həyata keçirildiyi, bununla yanaşı, Azərbaycanın Ermənistanla sülh prosesinin irəliləməsində maraqlı olduğu vurğulanıb.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin İrlandiyaya işgüzar səfəri başlayıb

**Sentyabrın 27-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Parlament Spikerlərinin Avropa Konfransında iştirak etmək üçün İrlandiyanın Dublin şəhərinə işgüzar səfərə gedib.**



Dublin Hava Limanında nümayəndə heyətini Azərbaycanın İrlandiyada akkreditə olunmuş səfiri Elin Süleymanov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədri Parlament Spikerlərinin Avropa Konfransında çıxış edəcək, tədbirdə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirəcəkdir.

*"Azərbaycan"*

# İqtisadiyyat Nazirliyinin kollektivi Zəfər parkında olub, şəhidlərin xatirəsini yad edib



Sentyabrın 27-də - Anım Günündə İqtisadiyyat Nazirliyinin kollektivi Bakıda inşası davam etdirilən Zəfər parkında olub.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Zəfər parkının girişində xatirə daşının önünə gül dəstələri qoyulub, Vətən müharibəsində qəhrəmancasına döyüşərək dövlətimizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla anılıb.

# Azərbaycandakı dini konfessiyaların rəhbərləri şəhidlərin xatirəsini anıblar

Sentyabrın 27-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə müsəlman din xadimləri və Azərbaycanda fəaliyyət göstərən pravoslav, katolik, yəhudi dini konfessiyalarının rəhbərləri Vətən müharibəsi şəhidlərinin Anım Günü ilə əlaqədar Zəfər parkında olub, İkinci Fəxri xiyabanı ziyarət ediblər.





QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində həlak olmuş Silahlı Qüvvələrimizin şəhid zabit və əsgərlərinin xatirəsi dini konfessiya rəhbərləri tərəfindən ehtiramla yad edilib. Onların şərəfinə "Qurani-Kərim" tilavət edilib, ruhlarına dualar oxunub, məzarları önünə gül dəstələri düzülüb.

Anım tədbirində çıxış edən Şeyxülislam Allahşükür Paşazadə, Dağ yəhudiləri dini icmasının rəhbəri Melih Yevdayev, Roma Katolik kilsəsinin Azərbaycandakı Apostol Prefekturasının mətbuat katibi Tural Ağayev, Bakı və Azərbaycan Yeparxiyasının katibi Aleksiy Nikonorov və Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski şəhidlərimizin qəhrəmanlıqlarından, Zəfərimizin qazanılması uğrunda mübarizədə şücaətlərindən və Vətənə məhəbbət örnəyindən danışıb, xatirələrini ehtiramla yad edib, ruhları üçün dualar oxuyublar.

Sentyabrın 27-də Anım Günü ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin tapşırığına əsasən, ölkə ərazisində fəaliyyət göstərən bütün məscidlərdə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyinin bərpası yolunda misilsiz qəhrəmanlıq nümayiş etdirən şəhidlər anılıb, şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib, namazlar qılınıb, ruhlarına "Qurani-Kərim"dən ayələr tilavət edilib, dualar oxunub. Dindarlar həmin hadisələrdə yaralanan əsgər və zabitlərimizin tezliklə şəfa tapmaları üçün dualar ediblər. Moizələrdə Vətən sevgisi, şəhidlik və onun məqamı barədə geniş məlumat verilib. Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasının vacibliyi qeyd edilib.

Vətən şəhidləri Azərbaycanın paytaxtında və bölgələrdəki məscidlərdə, həmçinin kilsə və sinaqoqlarda ehtiramla anılırlar.

# Daxili İşlər Nazirliyi Anım Gününə həsr olunmuş tədbir keçirib



Sentyabrın 27-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Daxili İşlər Nazirliyi (DİN) tərəfindən Anım Gününün üçüncü ildönümünə həsr olunmuş mərasim keçirilib. Tədbirdə 44 günlük Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.

Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mərasimdə çıxış edən daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan İlham Əliyevin vahid komandanlığı altında "dəmir yumruq" kimi birləşən Silahlı Qüvvələrimiz, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində, o cümlədən cari ilin 19-20 sentyabr tarixlərində Qarabağ ərazisində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı şərəfli döyüş yolu keçdiyini vurğulayıb. Şəxsi heyətin Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən məruzəçi torpaqların azad olunması zamanı 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını, 4 nəfərin "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, minlərlə əməkdaşın isə orden və medallarla təltif olunduğunu qeyd edib.

Diqqətə çatdırılıb ki, ölkə başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımız və polis əməkdaşları bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

Tədbirin davamında çıxış edənlər istər Birinci Qarabağ döyüşlərində, istərsə də 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının ön cəbhənin müxtəlif istiqamətlərində işğalçı düşmənə qarşı mətinliklə döyüşdüklərini bildiriblər.

Çıxışçılar bu gün işğaldan azad olunan ərazilərdə Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşlarının xidməti vəzifələrini böyük qürur hissi ilə davam etdirdiklərini məmnunluqla qeyd ediblər.

Tədbirin sonunda Samir Qulamovun qəhrəmanlıq salnaməmizi özündə əks etdirən "Bir nəfəs qədər" pyesi əsasında hazırlanan eyniadlı tamaşası nümayiş etdirilib.

# DTX-nin Mədəniyyət Mərkəzində Anım Gününə həsr olunmuş tədbir təşkil edilib



27 Sentyabr - Anım Günü ilə bağlı Bakı Bələdiyyə Teatrı Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində "Unutqanlıq qorxunc bəladır" adlı tamaşa səhnələşdirib.

DTX-nin əməkdaşlarının, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə nümayiş etdirilən, Azərbaycan xalqının məruz qaldığı soyqırımı və digər faciəvi hadisələrdən bəhs edən tamaşa qonaqların böyük marağına səbəb olub.

# Azərbaycan Riqada keçirilən milli statistika qurumlarının rəhbərlərinin tədbirində təmsil olunur





Sentyabrın 26-28-də Latviyanın paytaxtı Riqa şəhərində Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinin milli statistika qurumlarının rəhbərləri üçün "Statistika sisteminin modernizasiyası" mövzusunda Yüksək Səviyyəli seminar keçirilir. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.

Komitədən AZƏRTAC-a bildirilib ki, tədbirdə Şərq Tərəfdaşlığı və Mərkəzi Asiya ölkələrində son illərdə statistika sahəsində əldə edilmiş nailiyyətlər, statistika işlərinin təşkili sahəsində baş vermiş dəyişikliklər, məlumat mübadiləsində informasiya texnologiyalarının tətbiqi, rəsmi statistikada fərdi məlumatların rolu, inzibati məlumatlar və yeni məlumat mənbələri, məlumatların yayılmasında yeni strategiyalar və kommunikasiyalar, müasir statistikanın inkişafı üçün biliklərin aşılanması və artırılması, innovasiyaların təşkili və təşviqi və s. məsələlərlə bağlı məruzələr dinlənilir, təqdimatlar edilir, müzakirələr aparılır.

Tədbirdə çıxış edən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov son bir ildə komitə tərəfindən rəsmi statistik məlumatların müasir tələblərə uyğun hazırlanması, statistik potensialın gücləndirilməsi, rəsmi statistikada keyfiyyətin təmin olunması sisteminin təkmilləşdirilməsi və inkişafı, MİCS sorğusu, 2025-ci ildə ölkəmizdə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınmasına, statistik olimpiadaya hazırlıq, Dayanıqlı İnkişaf Məqsədləri üzrə məlumatların istehsalı barədə ətraflı məlumat verib.

Səfər zamanı Dövlət Statistika Komitəsi ilə tərəfdaş ölkələrin statistika qurumları arasında mövcud əlaqələrin genişləndirilməsi və qarşılıqlı əməkdaşlıq perspektivlərinin müzakirə edilməsi də nəzərdə tutulub.

# Ombudsman Səbinə Əliyeva Moldovada səfərdədir

Azərbaycan Respublikasının insan hüquqlari üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Moldova Konstitusiya Məhkəməsinin sədri Nikolay Roşka ilə görüşüb.

Ombudsman Aparatının Mətbuat xidmətindən bildiriblər ki, görüş zamanı müvəkkil Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi istiqamətində mövcud əməkdaşlıq əlaqələri və Konstitusiya Məhkəməsinə göndərilən sorğular barədə ətraflı məlumat verib.

S.Əliyeva işğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən basdırılmış minaların hərbi qulluqçularımızın və mülki şəxslərin həyatına son qoymaqda davam etdiyini, indiyədək 300-dən çox şəxsin mina terrorunun qurbanına çevrildiyini bildirib. Ombudsman dəfələrlə tələb edilməsinə baxmayaraq, Ermənistanın minalanmış ərazilərin dəqiq xəritələrini təhvil verməkdən boyun qaçırdığını diqqətə çatdırıb.

Müvəkkil Birinci Qarabağ müharibəsində itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinin bu günədək naməlum qaldığını, Ermənistanın insan hüquqları və beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozduğuna görə məsuliyyət daşıdığını diqqətə çatdırıb.

S.Əliyeva istər Vətən müharibəsi zamanı, istərsə də postmüharibə dövründə dünya ictimaiyyətinə müraciətlərin edildiyini, faktlara əsaslanan hesabat və bəyanatlar hazırlanaraq aidiyyəti beynəlxalq təşkilatlara, Ombudsman və milli insan hüquqları təsisatlarına təqdim olunduğunu qeyd edib.



Görüşdə Nikolay Roşka Moldova Konstitusiya Məhkəməsinin fəaliyyət istiqamətləri haqqında məlumat verib.

❖ ❖ ❖

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Moldovanın Xalq Müdafiəçisi (Ombudsman) Aparatının 25-ci ildönümünə həsr olunmuş "Müasir cəmiyyətlərdə mövcud olan yeni çağırışlar kontekstində insan hüquqlarının müdafiəsi və təbliği" mövzusunda beynəlxalq konfransda iştirak edib.

Ombudsman Aparatından bildiriblər ki, xarici ölkələrin ombudsmanlarının qatıldıqları tədbirdə "İnsan hüquqları və bərabərlik üzrə maarifləndirmə və təşviq dezinformasiya və propaqanda ilə mübarizə vasitəsi kimi" mövzusunda çıxış edən müvəkkil əhalinin müxtəlif qruplarının hüquqlarının təmini və təbliği istiqamətində fəaliyyəti barədə ətraflı məlumat verib.

S.Əliyeva Ombudsman təsisatının insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində əhalinin məlumatlılığının artırılmasında, milli qanunvericiliyin təkmilləşdirilməsi prosesində fəal iştirak etdiyini bildirib.

Eyni zamanda "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş dəyişikliklərdən, ölkəmizdə insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi üzrə həyata keçirilən islahatlardan bəhs edilib.

Azərbaycanın regionda, eləcə də bütün dünyada dezinformasiyadan və propaqandadan ən çox əziyyət çəkən ölkələrdən biri olduğunu vurğulayan ombudsman Ermənistan hərbi-siyasi rəhbərliyi tərəfindən uzun illər aparılan nifrət siyasətinin sülhə ciddi təhdid yaratdığını və insan hüquqlarının pozulmasına səbəb olduğunu qeyd edib. Həmçinin Azərbaycana qarşı etnik nifrət zəminində aparılan siyasətinin nəticəsi olaraq Ermənistan hakimiyyətinin sosial mediada davamlı şəkildə xalqlar arasında düşmənçilik hissi aşılayan mənfi təbliğat kampaniyası apardığı diqqətə çatdırılıb.

Vurğulanıb ki, Ombudsman təsisatı tərəfindən Ermənistanın azərbaycanlılara qarşı etnik zəmində nifrəti təbliğ edən siyasətinin qarşısının alınması üçün tədbirlərin görülməsi ilə bağlı dəfələrlə beynəlxalq qurumlara çağırışlar edilib, müvafiq beynəlxalq təşkilatlara, aidiyyəti qurumlara, xarici ölkələrin ombudsmanlarına, milli insan hüquqları təsisatlarına hesabat, müraciət və bəyanatlar göndərilib.

*AZƏRTAC*

# Azərbaycan-Türkiyə qardaşlığı xoşbəxt gələcəyə hesablanmışdır

Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Naxçıvana rəsmi səfəri və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşü, səsləndirilən fikirlər, imzalanan sənədlər dövlətlər və xalqlar arasında qardaşlıq və birliyin əbədi, sarsılmaz olduğunun ifadəsidir.



Səfər zamanı İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması, Kars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolunun, Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikintisi haqqında Əməkdaşlıq Sazişinin imzalanması, Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışı dünyaya bir daha göstərdi ki, Azərbaycan-Türkiyə strateji tərəfdaşdırlar və dövlət başçılarının dostluğu, həmrəyliyi hər iki ölkənin gələcək inkişafına böyük imkanlar yaradır, qüvvələri birləşdirir, birgə mübarizəyə yollar açır.

Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərində tarixi rol oynamaqla əməkdaşlığı yeni müstəviyə qaldırır və milli təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyət kəsb etməklə əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir.

Azərbaycan bu gün nəinki Türkiyə ilə münasibətlərin möhkəmlənməsinə, eləcə də dünya dövlətləri, Avropa ölkələri ilə əməkdaşlığa böyük önəm verir. Öz çıxışında Türkiyə Prezidenti bunu xatırladaraq bildirmişdir ki, İğdır-Naxçıvan qaz kəməri layihəsi Avropanın da enerji təhlükəsizliyinə töhfə verəcək.

Uzunluğu 97,5 kilometr olan boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcəkdir. Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətinin iki dəfədən çox artırılması mümkün olacaqdır ki, bu da region üçün çox əhəmiyyətlidir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Kars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanmasını tarixi hadisə adlandıraraq bildirmişdir ki, bu layihə Orta dəhlizin bir qolu kimi həm Azərbaycan, həm Türkiyə, həm də digər ölkələrə xidmət göstərəcək. Dövlətimizin rəhbərinin çıxışında lokal xarakterli antiterror tədbirinə xüsusi önəm verməsi təsadüfi deyildir. Bildirildiyi kimi, bu tədbir Azərbaycanın suverenliyinin tam təmin edilməsi ilə başa çatıb.

Cənab İlham Əliyev Türkiyə Prezidentinə müraciətlə qürurla qeyd etdi ki, bu hadisə baş verəndə siz Amerikada, Nyu Yorkda idiniz. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında iştirak etmişdiniz və orada dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən bəyanatlar vermişdiniz. Bu, Türkiyə tərəfindən göstərilən növbəti qardaşlıq addımıdır.

Türkiyə və Azərbaycan respublikalarının prezidentlərinin bəyanatlarında səsləndirilən fikirlər, verilən mesajlar deməyə əsas verir və sübut edir ki, söylənilənlər, qarşıya qoyulan vəzifələr yalnız iki dövlətin xalqlarının mənafeyinə deyil, bəşəri ideyalara əsaslanır və dünya xalqlarının gələcəyi üçün əhəmiyyətlidir. Çünki qardaş dövlətlər separatizmdən, təcavüzdən, ədalətsizlikdən uzun illər əziyyət çəkmiş, nəhayət, öz gücləri bahasına müstəqilliklərini qorumuşdular.

Türkiyə və Azərbaycan bu gün dünyada sülhün, əmin-amanlığın, əməkdaşlığın bərqərar edilməsi üçün bütün imkanlardan istifadə etməkdədi. Bu amal və əməl hər iki dövləti və onun rəhbərlərini birləşdirir və xalqlarımızı xoşbəxt gələcəyə aparır.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

## Ayhan SATICI: "Zəngəzur dəhlizinin böyük regional və beynəlxalq əhəmiyyəti var"

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri vəzifəsini icra edən Ayhan Satıcı Qazaxıstanın Almatı şəhərində keçirilən Beynəlxalq "Şərq-Qərb Logistika" Forumunda Azərbaycanı təmsil edib.



AZƏRTAC xəbər verir ki, A. Satıcı forumda "Zəngəzur dəhlizinin Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Təşkilatı (CAREC) ilə Avropa İttifaqı arasında iqtisadi münasibətlərin perspektivləri" adlı təqdimatla çıxış edib. O bildirib ki, Zəngəzur dəhlizinin böyük regional və beynəlxalq əhəmiyyəti var. Çünki bu layihə Şimal ilə Cənub, Qərb ilə Şərq nəqliyyat dəhlizlərini birləşdirən önəmli arteriyadır.

İkigünlük beynəlxalq forumda CAREC İnstitutu, Asiya İnkişaf Bankı və Alman-Qazax Universitetinin, həmçinin ABŞ, Almaniya, Türkiyə, Yaponiya, Hindistan, Qazaxıstan, Qırğızıstan və digər ölkələrin nüfuzlu institut və beyin mərkəzlərinin alimləri iştirak ediblər.

# Strateji tərəfdaşlığın yaratdığı güc

### Naxçıvanda tarixi görüş, imzalanan sənədlər Azərbaycan-Türkiyə müttəfiqliyinin daha da möhkəmlənməsinə yeni impuls verdi

Müttəfiq ölkələr olan Azərbaycan və Türkiyə arasında bütün sahələrdə əməkdaşlıq dərinləşməkdədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri zamanı müzakirə olunan məsələlər, həmçinin iki qardaş ölkə arasında imzalanan sənədlər bunu bir daha göstərdi.







Səfər çərçivəsində diqqətçəkən əsas məqamlardan biri Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən Naxçıvanın qaz təchizatının bir mənbədən asılılığına son qoyan İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması idi.

Bundan əlavə, iki ölkə arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu, Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi, həmçinin bərpaolunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalandı.

Azərbaycan-Türkiyə sənədlərinin imzalanmasından sonra mətbuata bəyanatla çıxışı zamanı Prezident İlham Əliyev bu sənədlərin Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına xidmət göstərəcəyini qeyd etdi.

Dövlətimizin başçısı bildirdi ki, İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi qardaşlıq münasibətlərinin tarixində önəmli hadisədir və iki ölkə arasında əlaqələrə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək.

### Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri yeni regional reallığın möhkəmləndirilməsinə xidmət edir

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında deyib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri iki müttəfiq ölkə arasında əlaqələrin dərinləşdirilməsi ilə yanaşı, yeni regional reallığın daha da möhkəmləndirilməsinə xidmət edir. Bu səfər zamanı Naxçıvanın enerji potensialını artıracaq, eyni zamanda onun İrandan gələn qazdan asılılığına son qoyacaq bir sıra anlaşmalar imzalanıb: "Eləcə də Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışı bölgəmiz haqda qara fikirlilərə, yaxud da haylar kimi müəyyən xülyalara qapılanlara göstərdi ki, oradakı əlahiddə ordu heç bir zaman zəifləməyəcək, hətta uzun illər ərzində qarşısına qoyulan istənilən döyüş tapşırığını yerinə yetirmək əzmində və gücündə olacaq".

Sahib Alıyev düşünür ki, Türkiyə Prezidentinin səfərində ən mühüm məsələlərdən biri məhz Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Cənab Ərdoğan mətbuata bəyanatının lap əvvəlində "Türkiyəni türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyuram" cümləsini işlətdi ki, bu da Zəngəzur dəhlizi açılmadan mümkünsüzdür. Eyni zamanda Azərbaycan Prezidentinin Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanmasını "tarixi hadisə" adlandırması, onun "Orta Dəhlizin həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcək bir qolu" kimi təqdim etməsi də məhz bundan xəbər verir. Cənab İlham Əliyevin Şərqi Zəngəzurda tikintisi gedən və gələn ilin sonunadək təhvil verilməsi gözlənilən dəmir yolunun Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirəcəyini vurğulaması da o deməkdir ki, Naxçıvan-Qars dəmir yolu bir növ bunun davamı kimi nəzərdə tutulur. Zəngəzur dəhlizi açılmadan bu, mümkün deyil. Zəngəzur dəhlizinin açılacağına əminlik olmadan isə tikintisinə yetərincə böyük vəsait sərf edilən dəmir yolu xətlərinin inşasına başlanılmazdı, bu haqda Niyyət Protokolu imzalanmazdı".

Deputat vurğulayıb ki, bütün bunlar iki qardaş dövlətin müttəfiqliyinə, liderlərinin böyük səmimiyyətlərinə, siyasi qətiyyətinə dayanır. "Son üç ilin hadisələri göstərdi ki, kimin nə düşünməsindən və necə davranmasından asılı olmayaraq, Azərbaycanla Türkiyə qarşılarına qoyduqları bütün hədəflərə birgə çatırlar. Çünki bunun üçün həm gücləri var, həm atdıqları addımlar beynəlxalq hüquq çərçivəsindədir. Bu həm də regionda sülhün, əmin-amanlığın əldə olunmasına xidmət edir".

### İğdır-Naxçıvan qaz kəməri ilə 730 milyon kubmetr mavi qaz nəql olunacaq

Milli Məclisin deputatı Vüqar Bayramov qeyd edib ki, Azərbaycan və Türkiyə prezidentlərinin Naxçıvan görüşü bir daha iki ölkə arasında strateji əməkdaşlığın daha da dərinləşdiyini təsdiq edir. Görüşdə yalnız iqtisadi deyil, həm də bölgədəki ümumi vəziyyətin müzakirə olunması Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu, eyni zamanda Azərbaycanın daim Türkiyəni yaxından dəstəklədiyini bir daha nümayiş etdirir. "Təbii ki, səfər zamanı bir sıra məsələlər müzakirə olundu. Həm İğdır-Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi, həm də nəqliyyat sahəsində Naxçıvan istiqamətində əməkdaşlığın gücləndirilməsi perspektivləri diqqət mərkəzində oldu. Qaz kəmərinin təməlqoyma mərasiminin keçirilməsi çox vacib idi, çünki bu kəmər Naxçıvanın mavi qazla təminatında bir mənbədən asılılığının azaldılmasına imkan verəcək. İlkin qiymətləndirmələrə görə, qaz kəməri istifadəyə verildikdən sonra Naxçıvana illik 730 milyon kubmetr mavi qaz nəql olunacaq. Daha sonra bu göstəricinin iki dəfə artırılaraq 1,5 milyard kubmetrə çatdırılması nəzərdə tutulub", - deyə deputat əlavə edib.

V.Bayramov deyib ki, Naxçıvanın mavi qaza olan tələbatı həmin kəmər vasitəsilə ödəniləcək. Gələcəkdə isə Zəngəzur dəhlizi vasitəsilə yalnız sərnişin və yükdaşımalar deyil, həm də elektrik enerjisi, digər alternativ yanacaqların daşınması planlaşdırılır.

İğdır-Naxçıvan qaz kəmərini həm də Avropanın enerji təhlükəsizliyinin formalaşmasına töhfə kimi qiymətləndirən deputat bildirib ki, kəmər bu baxımdan da əhəmiyyətlidir.

Onun sözlərinə görə, Azərbaycan və Türkiyə bərpaolunan enerji sahəsində də əməkdaşlığı gücləndirəcəklər: "Hər iki ölkənin alternativ enerji sahəsində böyük potensialı var. Azərbaycan Avropa İttifaqı ilə bu istiqamətdə artıq anlaşma memorandumu imzalayıb və ölkəmizdə bərpa olunan mənbələrdən əldə olunan enerji Avropa məkanına çıxarılacaq. Bu da çox ciddi məqamlardan biridir. Bütün bunlar ondan xəbər verir ki, Azərbaycan "yaşıl enerji" sahəsində yalnız Avropa ilə deyil, həmçinin Türkiyə ilə də sıx əməkdaşlıq quracaq. Bu da müasir çağırışlara uyğun olaraq Azərbaycan- Türkiyə arasındakı enerji əməkdaşlığının dərinləşməsinə xidmət edəcək".

### Yeni qaz kəməri enerji ortaqlığını dərinləşdirəcək

Hazırda Naxçıvana qazın İrandan verildiyini deyən Milli Məclisin deputatı Aydın Hüseynov qeyd edib ki, bu, 2004-cü ildə İranla bağlanılmış svop müqaviləsi əsasında həyata keçirilir və qaz İrana Astara vasitəsilə nəql edilməklə barter edilir.

Deputat bildirib ki, qarşıdakı planda isə Naxçıvana bir neçə istiqamətdən, yəni şaxələndirilmiş boru kəmərləri vasitəsilə qazın verilməsi nəzərdə tutulur: "Çünki İran kəmərində həm fasilələr olur, həm də qışda əlavə tələbat yaranır. Ona görə də İğdır xəttinə ehtiyac yaranmışdı. Bu baxımdan Türkiyədən çəkilən qaz kəməri vasitəsilə yanacağın Naxçıvana verilməsi ən rentabelli və etibarlı mənbə hesab olunur. İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr olan boru kəməri gündə 2 milyon, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza olan tələbatı tamamilə ödəniləcək".

Gələcəkdə bu qaz boru kəmərinin ötürücülük qabiliyyətinin iki dəfədən çox artırılmasının mümkünlüyündən danışan A.Hüseynov deyib ki, bu layihə iqtisadi səmərə daşımaqla, Azərbaycanın milli enerji konsepsiyasının hədəflərinə uyğun olaraq daha təhlükəsiz və etibarlı, dayanıqlı qaz nəqlini həyata keçirməklə bağlıdır. İğdır-Naxçıvan qaz kəməri layihəsi enerji təminatı ilə yanaşı, siyasi əhəmiyyət də daşıyır. Bu layihə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişafı üçün qarşılıqlı şəkildə atılan addımların müsbət nəticəsi kimi siyasi və iqtisadi əməkdaşlığı gücləndirəcək, regionda inkişaf, sülh və sabitliyə müsbət töhfə verəcək. Eyni zamanda Türkiyə və Azərbaycan arasında enerji sahəsində ortaqlığı daha da dərinləşdirməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinə də töhfə verəcək.

Deputat vurğulayıb ki, Türkiyədən qaz nəqli Azərbaycanın İranla qaz sahəsində əməkdaşlığına mane olmayacaq: "Hər iki ölkə bölgədə enerjinin şaxələndirilməsində yaxından iştirak edəcək. Türkiyədən Naxçıvana qaz tədarükü qaz təchizatını şaxələndirəcək və enerji təminatının etibarlılığını artıracaq. Naxçıvan həm İrandan, həm də Türkiyədən dəstək almaqla artan enerji tələbatını tam təmin edə biləcək".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2023-cü ilin oktyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 3 |
| **Adil Abış oğlu ƏLİYEV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | 9 |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 4 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 11 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 19 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 6 |
| **Tahir Famil oğlu MİRKİŞİLİ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 5 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 10 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 16 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 23 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 12 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 11 |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 18 |
| **Qənirə Ələsgər qızı PAŞAYEVA** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 25 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 5 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 17 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 20 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 24 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 27 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 26 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 30 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 13 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə:**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 492-74-05; (012) 510-89-14.**

# Beynəlxalq konfransda Azərbaycanda mövcud olan dini dözümlülük barədə danışılıb

Sentyabrın 27-də Tbilisidə "Dinlərarası dialoqda dövlətin rolu" mövzusunda beynəlxalq konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların - şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze çıxış edərək şəhidlərimizə Allahdan rəhmət diləyib. O, bu cür tədbirlərin təşkilini yüksək qiymətləndirib. Bildirib ki, müasir dövrdə dinlər arasında dostluq əlaqələrinin inkişafı olduqca vacibdir. Bu cür tədbirlər dini ekstremizmə qarşı mübarizədə mühüm rol oynayacaq.

Sonra Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edib. Komitə sədri Azərbaycanda mövcud olan dini dözümlülük barədə danışıb. Dünyada mövcud olan münaqişələrin həllində dinlərin rolunu xüsusi vurğulayan M.Qurbanlı deyib ki, din xadimlərinin bu məsələdə çıxışları olduqca vacibdir.



O, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında dinlə dövlət münasibətlərinin tənzimləndiyini xüsusi qeyd edib.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev çıxışında Azərbaycan ilə Gürcüstan arasındakı əlaqələrin digər ölkələr üçün nümunə olduğunu bildirib.

Diplomat Azərbaycan dövlətinin Gürcüstandakı soydaşlarımıza göstərdiyi diqqət və qayğı barədə məlumat verib.

Gürcüstan Baş nazirinin insan hüquqları üzrə müşaviri Niko Tatulaşvili çıxışında insan hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər barədə danışıb.

Konfransda Azərbaycanın və Gürcüstanın dövlət və hökumət rəsmiləri, Azərbaycan, Türkiyə, İraq, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Macarıstanın Gürcüstandakı səfirləri, ABŞ, Qazaxıstan, İtaliya səfirliklərinin məsul əməkdaşları, Avropa İttifaqının və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.



*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!..*

# Antiterror tədbirlərində şəhid olmuş hərbi qulluqçuların

# SİYAHISI

| № | Fotoşəkil | Rütbəsi | Soyadı, adı, atasının adı | Təvəllüdü |
|---|---|---|---|---|
| 1 | | əsgər | Abbasov Mehti Əmrah oğlu | 04.07.2004 |
| 2 | | baş leytenant | Abbasov Ruslan Əbilfət oğlu | 04.09.1995 |
| 3 | | baş leytenant | Abbasov Zamin Xaqani oğlu | 08.03.1993 |
| 4 | | gizir | Abbaszadə Emin Faiq oğlu | 15.05.1998 |
| 5 | | kiçik çavuş | Abdullayev Asim Cavanşir oğlu | 10.12.1982 |
| 6 | | əsgər | Abuşov Habil Qulam oğlu | 28.06.2004 |
| 7 | | əsgər | Ağaxanov Osman Qədim oğlu | 05.04.2004 |
| 8 | | əsgər | Ağayev Kənan Vahid oğlu | 09.09.2002 |
| 9 | | əsgər | Ağayev Ceyhun Etibar oğlu | 29.04.1987 |
| 10 | | kiçik çavuş | Ağcabəyov Tural Təbriz oğlu | 14.09.1987 |
| 11 | | əsgər | Alıyev Fərid Tofiq oğlu | 12.03.2005 |
| 12 | | əsgər | Arzullayev Murad Təvəkkül oğlu | 21.02.1998 |
| 13 | | əsgər | Aslanov Sahil Əhliman oğlu | 01.11.1996 |
| 14 | | əsgər | Axundov Murad Xidir oğlu | 04.08.2004 |
| 15 | | əsgər | Babaşov Ucal Nərbala oğlu | 09.04.1995 |
| 16 | | kiçik leytenant | Babazadə Əli Rüstəm oğlu | 13.07.1990 |
| 17 | | kapitan | Balabəyli Elcan Vasif oğlu | 12.03.1992 |
| 18 | | leytenant | Bayramov Davud Şamil oğlu | 01.01.2000 |
| 19 | | gizir | Bayramov İxtiyar Bayram oğlu | 01.05.1998 |
| 20 | | əsgər | Bədəlov Oruc Arif oğlu | 05.12.2002 |
| 21 | | əsgər | Beydiyev Röyal Nəsib oğlu | 18.02.2005 |
| 22 | | gizir | Bilalov Sərxan İsmət oğlu | 31.05.1989 |
| 23 | | kiçik leytenant | Cahangirov Tural Qələmhüseyn oğlu | 01.07.1991 |
| 24 | | əsgər | Canbaxışov Xəyal Xeyrulla oğlu | 09.01.2003 |
| 25 | | əsgər | Cəfərov Elşad Malik oğlu | 27.11.1999 |
| 26 | | əsgər | Cəfərov Mahir Asif oğlu | 13.09.1986 |
| 27 | | gizir | Cəfərov Oleq Qılıç oğlu | 04.11.1989 |
| 28 | | əsgər | Cəfərov Rəvan Məhəmmədəli oğlu | 10.02.2004 |
| 29 | | kapitan | Cəfərov Xəzər Qalib oğlu | 17.06.1991 |
| 30 | | əsgər | Cəlilov Devid Raufoviç | 29.02.2004 |
| 31 | | baş leytenant | Daşdəmirov Sahib Natiq oğlu | 06.05.1995 |
| 32 | | əsgər | Dünyamalıyev İslam Teymur oğlu | 25.06.2004 |
| 33 | | əsgər | Dünyamalıyev Rüstəm Nərman oğlu | 31.01.1993 |
| 34 | | əsgər | Eynəliyev Samrad İkram oğlu | 08.01.2005 |
| 35 | | kapitan | Eyvazov Vüqar Eyvaz oğlu | 24.01.1989 |
| 36 | | əsgər | Eyyubov Murad Bəxtiyar oğlu | 10.01.2005 |
| 37 | | baş leytenant | Ədilzadə Ədil Rövşən oğlu | 25.05.1995 |
| 38 | | əsgər | Əhədov Eltac Əjdər oğlu | 04.08.2004 |
| 39 | | kiçik gizir | Əhmədov Rizvan Niyazı oğlu | 20.04.1996 |
| 40 | | kiçik çavuş | Əhmədov Vilayət Dilafət oğlu | 01.07.1999 |
| 41 | | kiçik çavuş | Əhmədov Yusif Ələsgər oğlu | 22.12.1989 |
| 42 | | mayor | Əkbərov Aqil Fəyaddin oğlu | 14.09.1985 |
| 43 | | əsgər | Əkbərov Şahid Natiq oğlu | 22.10.1996 |
| 44 | | əsgər | Ələkbərov Ramal Elnur oğlu | 24.04.2005 |
| 45 | | əsgər | Ələmmədov Xanbaba Ceyhun oğlu | 05.07.2004 |
| 46 | | çavuş | Əlibəyov Əlibəy Mirkərim oğlu | 29.10.1983 |
| 47 | | əsgər | Əlişanov Ağami Mehman oğlu | 01.01.2002 |



*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!..*

# Antiterror tədbirlərində şəhid olmuş hərbi qulluqçuların SİYAHISI

| | | | |
|---|---|---|---|
| 48 | əsgər | Əliyev Altun Tağı oğlu | 24.03.2002 |
| 49 | əsgər | Əliyev Cavid Ceyhun oğlu | 18.03.2004 |
| 50 | gizir | Əliyev Elməddin Dövlət oğlu | 28.10.1991 |
| 51 | əsgər | Əliyev Orxan Eldar oğlu | 25.06.1986 |
| 52 | kiçik çavuş | Əliyev Ramil Şakir oğlu | 10.05.2000 |
| 53 | əsgər | Əliyev Səbuhi Tahir oğlu | 23.04.1993 |
| 54 | leytenant | Əliyev Şəhriyar Bəxtiyar oğlu | 05.08.1997 |
| 55 | əsgər | Əliyev Sərxan Rabil oğlu | 12.09.2003 |
| 56 | əsgər | Əliyev Talıb Elman oğlu | 07.12.2003 |
| 57 | baş leytenant | Əliyev Vəliyulla Elmanoviç | 16.03.1994 |
| 58 | əsgər | Əlizadə Tuncay Nicad oğlu | 25.11.2004 |
| 59 | əsgər | Əmirov Tural Mətləb oğlu | 22.10.1999 |
| 60 | əsgər | Əsədov Əlibala Əli oğlu | 02.04.2004 |
| 61 | əsgər | Əzizalıyev Seymur Təyyub oğlu | 27.07.2004 |
| 62 | əsgər | Fətizadə Fəti Ağamoğlan oğlu | 10.06.1998 |
| 63 | kapitan | Həmidli Həmid Əlisahib oğlu | 28.07.1996 |
| 64 | kiçik leytenant | Həmidli Mikayıl Vüqar oğlu | 28.12.1998 |
| 65 | əsgər | Həmidov Şamxal Musa oğlu | 24.10.2004 |
| 66 | əsgər | Həsənli Ərzulla Mübariz oğlu | 04.01.2004 |
| 67 | əsgər | Həsənov Amin İlqar oğlu | 23.10.2004 |
| 68 | əsgər | Həsənov Emral Vüqar oğlu | 06.01.2002 |
| 69 | kiçik çavuş | Həsənov Həsən Zabit oğlu | 08.03.1995 |
| 70 | baş leytenant | Həsənov Kərəm Akif oğlu | 01.01.1996 |
| 71 | gizir | Həsənov Şamil Şiraslan oğlu | 18.07.1988 |
| 72 | əsgər | Heybətov Serqey Ramin oğlu | 02.08.2003 |
| 73 | əsgər | Hüseynov Məhəmməd Şəfahət oğlu | 30.12.2003 |
| 74 | gizir | Hüseynov Məhərrəm Ələşrəf oğlu | 11.10.1983 |
| 75 | əsgər | Hüseynov Səbuhi Məhbub oğlu | 27.03.2002 |
| 76 | baş çavuş | Hüseynov Şikar Hüseyn oğlu | 15.10.1995 |
| 77 | əsgər | Hüseynzadə Mirmusa Vüqar oğlu | 04.11.2003 |
| 78 | əsgər | Hüseynzadə Ramazan Həmdulla oğlu | 01.01.2000 |
| 79 | gizir | Xanəliyev İsmayıl Ziyad oğlu | 20.07.1999 |
| 80 | əsgər | Xankişiyev Elşən Elşad oğlu | 23.06.2000 |
| 81 | əsgər | Xanməmmədov Hüseyn Mayis oğlu | 20.09.1985 |
| 82 | əsgər | Xələfov Tapdıq Vidadi oğlu | 29.03.1996 |
| 83 | əsgər | Xəlilli Məhəmməd İlqar oğlu | 17.09.2004 |
| 84 | gizir | Xəlilov Yusif Məmmədrza oğlu | 30.04.1983 |
| 85 | baş leytenant | İbrahimli Elçin Sadiq oğlu | 26.09.1997 |
| 86 | baş gizir | İbrahimov Elnur Səxavət oğlu | 13.11.1990 |
| 87 | əsgər | İdrisov Bəxtiyar İxtiyar oğlu | 16.10.2004 |
| 88 | çavuş | İmaməliyev Etibar Hicran oğlu | 22.11.1995 |
| 89 | leytenant | İsayev İsmayıl Çərkəz oğlu | 24.04.2000 |
| 90 | əsgər | İskəndərov Murad Əlağa oğlu | 27.03.2004 |
| 91 | kiçik leytenant | İsmayılov Vüqar Məmmədqasım oğlu | 17.10.1992 |
| 92 | əsgər | İsmiyev Zeynal Mustafa oğlu | 02.07.2005 |
| 93 | əsgər | Kəlbiyev Əkrəm Faiq oğlu | 13.08.1993 |
| 94 | əsgər | Kərimov Elnur Adil oğlu | 20.04.1994 |
| 95 | əsgər | Köklərov Sərxan Eyvaz oğlu | 09.06.1987 |



*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!..*

# Antiterror tədbirlərində şəhid olmuş hərbi qulluqçuların

# SİYAHISI

| | | | |
|---|---|---|---|
| 96 | əsgər | Qafarov Savalan İsfəndiyar oğlu | 09.12.2003 |
| 97 | kiçik çavuş | Qarayev Elmin Rafət oğlu | 15.12.1999 |
| 98 | əsgər | Qardaşzadə Elsevər Rakif oğlu | 23.02.2004 |
| 99 | əsgər | Qasımlı Nicat Elşən oğlu | 13.08.2003 |
| 100 | baş leytenant | Qasımov İbrahim Malikəjdər oğlu | 29.01.1992 |
| 101 | əsgər | Qasımov Kamal Hüseyn oğlu | 08.10.2004 |
| 102 | kiçik leytenant | Qasımov Qərib Şahbaz oğlu | 25.10.1997 |
| 103 | mayor | Qasımov Sənan Fərman oğlu | 07.03.1991 |
| 104 | əsgər | Qasımzadə İnqlab Füzuli oğlu | 22.01.2005 |
| 105 | əsgər | Qayibov Elvin İkram oğlu | 15.07.1994 |
| 106 | kiçik çavuş | Qədirov Amid Qurban oğlu | 14.08.2000 |
| 107 | kiçik çavuş | Qəhrəmanov Əlimərdan Səməd oğlu | 19.07.1996 |
| 108 | əsgər | Qəhrəmanov Sadiq Sakit oğlu | 28.02.1996 |
| 109 | əsgər | Qəhrəmanov Sənan Nəsimi oğlu | 19.07.2004 |
| 110 | kapitan | Qeybəliyev Elvin Ağalar oğlu | 22.06.1986 |
| 111 | matros | Qiyaslı Davud Telman oğlu | 12.01.2003 |
| 112 | gizir | Quliyev Nəcməddin Natiq oğlu | 21.12.1998 |
| 113 | baş leytenant | Quluzadə Nihat Qasım oğlu | 24.01.1997 |
| 114 | kiçik çavuş | Lalayev Ruslan Akif oğlu | 17.02.1994 |
| 115 | əsgər | Lətifov Elməddin Qabil oğlu | 31.10.1987 |
| 116 | əsgər | Manafov Qiyas Ramil oğlu | 18.07.2004 |
| 117 | əsgər | Mehdizadə Mirpaşa Yaqub oğlu | 04.12.1999 |
| 118 | əsgər | Məhərrəmov Cavad Sadiq oğlu | 17.10.2003 |
| 119 | əsgər | Məhərrəmov Mayis Füzuli oğlu | 14.07.1982 |
| 120 | əsgər | Mehtiyev Şəhriyar Mübariz oğlu | 07.01.2005 |
| 121 | əsgər | Məmmədəliyev Niyazi Samir oğlu | 07.06.2002 |
| 122 | əsgər | Məmmədhəsənov Qasim Bilal oğlu | 18.12.2001 |
| 123 | leytenant | Məmmədli Elxan Ələkbər oğlu | 13.10.1997 |
| 124 | əsgər | Məmmədov Eltun Vüqar oğlu | 27.01.2004 |
| 125 | leytenant | Məmmədov Fizuli Bəhruz oğlu | 05.04.1989 |
| 126 | matros | Məmmədov Ramil Habil oğlu | 18.10.2004 |
| 127 | leytenant | Məmmədov Röyal Asif oğlu | 12.02.1997 |
| 128 | kiçik çavuş | Məmmədov Samir Məmməd oğlu | 15.06.1988 |
| 129 | leytenant | Məmmədov Tural Süleyman oğlu | 21.09.2000 |
| 130 | əsgər | Mikayılov Ülvi Bəhruz oğlu | 20.08.2004 |
| 131 | baş leytenant | Mirzəyev Cavid Azər oğlu | 14.11.1994 |
| 132 | əsgər | Mirzəyev Əlmirzə Ağamirzə oğlu | 12.10.2004 |
| 133 | kiçik leytenant | Mirzəyev Fərid Namiq oğlu | 28.06.1988 |
| 134 | əsgər | Mirzəyev Sənan Vüqar oğlu | 29.12.2004 |
| 135 | kiçik çavuş | Mirzəzadə Mirzəəli Kamran oğlu | 28.08.2002 |
| 136 | gizir | Museyibli İsgəndər Qənbər oğlu | 01.01.1994 |
| 137 | gizir | Mustafayev Hüseyn Əli oğlu | 07.02.1989 |
| 138 | əsgər | Mustafayev Nihat Asəf oğlu | 01.03.2004 |
| 139 | əsgər | Mustafazadə Vəli Ceyhun oğlu | 25.12.2003 |
| 140 | kiçik çavuş | Nadirli Elvin Yurik oğlu | 13.09.1995 |
| 141 | mayor | Nəcəfi Elxan Şükür oğlu | 14.04.1986 |
| 142 | əsgər | Nəsibov Aqşin Vasif oğlu | 10.03.2004 |
| 143 | əsgər | Nəsibov Hüseyn Əfqan oğlu | 07.11.2004 |



*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!..*

# Antiterror tədbirlərində şəhid olmuş hərbi qulluqçuların SİYAHISI

| | | | | |
|---|---|---|---|---|
| 144 |  | əsgər | Novruzzadə Hüseyn Faiq oğlu | 16.03.2004 |
| 145 |  | kiçik çavuş | Nurməhəmmədov Ramazan Nurəhmədoviç | 17.03.1992 |
| 146 |  | əsgər | Orucov Dağbəyi Sabay oğlu | 17.11.2002 |
| 147 |  | baş leytenant | Orucov Niftalı Qəfər oğlu | 12.03.1995 |
| 148 |  | gizir | Rəhimov Ramil Sucəddin oğlu | 01.01.1992 |
| 149 |  | çavuş | Rəsulov Nurəddin Akif oğlu | 31.10.1991 |
| 150 |  | çavuş | Rüstəmli Behruz Malik oğlu | 01.10.1998 |
| 151 |  | polkovnik-leytenant | Rüstəmov Vüsal Rüstəm oğlu | 11.05.1984 |

| | | | | |
|---|---|---|---|---|
| 160 |  | mayor | Səmədov Xəyyam Mirazim oğlu | 16.01.1986 |
| 161 |  | əsgər | Soltanbəyli Tamerlan İmran oğlu | 28.11.1997 |
| 162 |  | əsgər | Süleymanlı Nail Səfər oğlu | 23.05.2003 |
| 163 |  | əsgər | Süleymanov Elmət Rafiq oğlu | 11.01.2005 |
| 164 |  | kapitan | Sultanov Xəlfəli Böyükağa oğlu | 18.07.1990 |
| 165 |  | çavuş | Sumbatzadə Vüsal Barat oğlu | 01.11.1994 |
| 166 |  | gizir | Şabıyev Seymur Sabir oğlu | 16.06.1997 |
| 167 |  | əsgər | Şəhriyarov Vüsal Təbiyyət oğlu | 11.12.2001 |

| | | | | |
|---|---|---|---|---|
| 176 |  | əsgər | Yunusov Eltun Cavanşir oğlu | 01.05.2004 |
| 177 |  | leytenant | Yusibli Nofəl Yusib oğlu | 03.11.2000 |
| 178 |  | baş leytenant | Yusifli Şəmistan Şükran oğlu | 16.01.1998 |
| 179 |  | əsgər | Zamanlı Əhməd Azad oğlu | 01.06.2004 |
| 180 |  | gizir | Zeynallı Rəşid Mədət oğlu | 04.02.2000 |

| | | | | |
|---|---|---|---|---|
| 152 |  | əsgər | Rzayev İqbal İlham oğlu | 19.04.2004 |
| 153 |  | əsgər | Rzayev Ramil Elçin oğlu | 26.03.2004 |
| 154 |  | əsgər | Sadıqov Ceyhun Niyaməddin oğlu | 26.08.2002 |
| 155 |  | əsgər | Sadıqov Neman Bəhrəm oğlu | 09.01.1996 |
| 156 |  | əsgər | Salmanov Elçin Habil oğlu | 27.09.2001 |
| 157 |  | əsgər | Səfərov Cavid Rövşən oğlu | 24.01.2005 |
| 158 |  | əsgər | Səfərov Gökhan İlqar oğlu | 20.03.2005 |
| 159 |  | leytenant | Səmədov Elçin Akif oğlu | 30.07.1989 |

| | | | | |
|---|---|---|---|---|
| 168 |  | gizir | Şəmşiyev İlham Şakir oğlu | 09.04.1997 |
| 169 |  | gizir | Şıxəliyev Ceyhun Oktay oğlu | 10.01.1994 |
| 170 |  | gizir | Tağıyev Əli Azad oğlu | 25.07.1998 |
| 171 |  | matros | Tağızadə Cahangir Qurban oğlu | 27.05.2004 |
| 172 |  | əsgər | Tanırverdiyev Amil Elşən oğlu | 19.05.2004 |
| 173 |  | əsgər | Təhməzov Mirəli Mirfəttah oğlu | 28.11.2004 |
| 174 |  | gizir | Teymurov Rəsul Yusif oğlu | 01.01.1997 |
| 175 |  | əsgər | Vəlizadə Rəşad Elşən oğlu | 07.04.1999 |

**Müdafiə Nazirliyi sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərində şəhid olmuş hərbi qulluqçuların siyahısını (https://mod.gov.az//images/pdf/331245eaa36c6c0e583bb65f1067d532.pdf) açıqlayıb.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, siyahıda hərbi qulluqçuların fotoşəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında məlumat təqdim olunub.

"Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimizin ruhu qarşısında baş əyirik!", - məlumatda qeyd edilib.

## Müdafiə Nazirliyinin rəhbər heyəti inşası davam etdirilən Zəfər parkında olub

Sentyabrın 27-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.




Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

Nazirliyin rəhbərliyi və bir qrup şəxsi heyəti parkın girişindəki xatirə daşının üzərinə gül dəstələri qoyublar.

## Müdafiə Nazirliyinin rəhbər heyəti Anım Günündə şəhidlərimizin məzarlarını ziyarət edib

Sentyabrın 27-də Anım Günü münasibətilə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti İkinci Şəhidlər xiyabanını ziyarət ediblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub, məzarları ziyarət edilərək üzərlərinə gül dəstələri düzülüb.

Sonda general-polkovnik Z.Həsənov və nazirliyin digər rəhbər heyəti şəhidlərin ailə üzvləri və yaxınları ilə görüşüb, onların qayğıları ilə maraqlanıblar.

Şəhid ailələrinin üzvləri xiyabanda aparılan yenidənqurma, abadlıq işləri, o cümlədən ziyarətçilər üçün yaradılan şəraitdən razılıqlarını ifadə ediblər. Şəhid məzarlarına hörmət və ehtiramla qulluq göstərildiyinə görə minnətdarlıqlarını bildiriblər.

# Oğullar Vətən oldu

## 192 igid Azərbaycanın ərazi bütövlüyünə əbədilik möhürünü vurdu

*Əvvəli 1-ci səh.*

Vətən uğrunda irəli atılan hünərli oğullarımızın hər birinin müqəddəs amalı qələbəni təmin etmədən geri dönməmək, bu yolda son damla qanlarınadək vuruşub düşməni məhv etmək idi. And içmişdilər: Qarabağın ən hündür zirvələrində, Şuşada dalğalandıracaqdılar hər zaman ürəklərinin üzərində gəzdirdikləri müqəddəs üçrəngli bayrağımızı.

Və onların hər biri üçün bu yolda öldü vardı, döndü yox!..

❖ ❖ ❖

Elə bu müqəddəs istəklə də çətin yollardan keçdilər, sıldırımlar aşdılar, silah-sursat olmadıqda belə, yalın əllə düşmənin üzərinə şığıdılar. Bu qəhrəman igidlərin çoxu mənfurların üzərinə yeriyərkən minaya düşdü, qəlpə, güllə yarası aldı, amma onların hamısı canlarını güdməyib haqq yolunda irəliləməkdən dönmədi, tibbi yardımdan, arxaya təxliyə olunmaqdan imtina etdi, elə qanları süzülə-süzülə torpaqlarımızı azad etməyə tələsdilər.

30 illik işğala son qoymağa, bu illərdə faciələrə məruz qalan, ədalətsizliyin qurbanı olan Azərbaycan xalqının qanayan yaralarına məlhəm olmağa çalışdılar...

Bu illər ərzində erməni faşistləri xalqımızın başına çox bəlalar gətirmiş, soydaşlarımız tarixi dədə-baba torpaqlarından qovulmuş, soyqırımlarla üzləşmiş, tükürpədici vəhşiliklərə məruz qalmışdılar. Faşist xislətli düşmən əsir, əliyalın mülki vətəndaşlarımıza qarşı olmazın işgəncələr həyata keçirmiş, yüz minlərlə vətəndaşımızı öz vətənində didərginə, qaçqına, köçkünə çevirmişdi...

Bu zaman ərzində o qədər körpələr doğuldu ki, öz ata-baba yurdunu görməyən, doğma vətənini yalnız fotolardan, xatirələrdən tanıyan...



O qədər insan öz yurd-yuvasını bir daha görmədən bu dünyayla vidalaşdı ki...

Bütün bu haqsızlıqları, zülmü, müsibətləri isə, nə göydə Allah, nə də yerdə bəndə götürərdi...

❖ ❖ ❖

Heç zaman nahaqla barışmayan, zülmə boyun əyməyən Azərbaycan xalqının hər doğulan körpəsi qisas hissi ilə böyüdü, bir gün düşməndən bütün bu zülmlərin intiqamını alacağına and içdi...

Və elə bu qisas hissindən yoğrulan qəzəblə də işğalçıya, yurdumuza göz dikən yağıya həddini bildirən qəhrəman oğullarımız Vətən müharibəsinin hər günündə şanlı tarix yazdılar. Sinələrini Vətənə sipər edərək addım-addım, qarış-qarış irəlilədilər, işğalda olan yurdumuzu kənd-kənd, qəsəbə-qəsəbə, şəhər-şəhər azad etdilər. 44 gün ərzində hər gün qələbə müjdəsi ərməğan etdilər bizə...

Bu şad xəbərləri Ali Baş Komandan İlham Əliyevdən alan Azərbaycan xalqı əllərində bayraqlar sevinclə meydanlara, küçələrə axışdılar, zəfərimizi qeyd etdilər. Bu qələbə sevincini paylaşmaq üçün minlərlə insan müqəddəs and yerlərimiz olan Şəhidlər xiyabanlarına ziyarətə yollandılar, əbədiləşən qəhrəmanların ruhlarına dualar oxudular...

Vətən müharibəmizin 44 günündə canını torpağa fəda edən şəhidlərin anaları, ataları göz yaşlarını ürəklərinə axıtdılar, "Vətən sağ olsun!" dedilər, "min oğlumuz olsa, mini də bu Vətənə qurban" deyə hayqırdılar...

❖ ❖ ❖

2023-ci ilin sentyabrında xalqımızın bağrına yenidən od-alov düşdü, qəhrəman oğullarımızın şəhidlik xəbəri ilə sarsıldıq.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən sentyabrın 19-dan 20-dək həyata keçirilən uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edildi. Lokal antiterror tədbirləri zamanı Silahlı Qüvvələrimizin 192 hərbi qulluqçusu şəhid oldu.

Azərbaycanın suverenliyi uğrunda döyüşə atılan cəsur oğullarımız düşmənin külünü göyə sovuraraq xalqımıza yeni qələbə ərməğan etdilər. İgid döyüşçülərimiz bir daha dünyaya sübut etdilər ki, Azərbaycanı canlarından çox sevirlər və bu torpaq onlar üçün, sadəcə, üzərində durduqları quru yer deyil, qanları ilə suvardıqları üçrəngli bayrağımızın qürurla dalğalandığı müqəddəs Vətəndir.

Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin Vətən uğrunda "İrəli" əmrini eşidərək düşmən üzərinə yeriyən, "dəmir yumruğ"a çevrilən, torpaqlarımız uğrunda canını qurban verən bütün şəhidlərimizin qisasını alan, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin edən qəhrəman igidlərimizlə qürur, şərəf duyuruq...

❖ ❖ ❖

Əgər bu gün başıuca, qələbə sevinci ilə, düşməndən qisasımızın alınmasının fəxarət hissi ilə yaşayırıqsa, bu, məhz qəhrəman oğullarımızın fədakarlığı sayəsindədir. İllərlə həsrətində olduğumuz dədə-baba yurdlarımıza, Qarabağa, Şərqi Zəngəzura indi azadə ayaq basırıqsa, bu, məhz igidlərimizin şücaəti nəticəsindədir…

Uca şəhidlərimiz, bizə bəxş etdiyiniz bu İlahi xoşbəxtliyə görə, ömür boyu sizlərə minnətdar olacağıq…

Sizin bu Vətən üçün etdiklərinizi sözlə ifadə etmək mümkün deyil! Nə desək də, nə yazsaq da, qanınızla imza atdığınız qəhrəmanlıq salnaməsinin qarşısında sönük qalar...

Bu fədakarlığınızı ürəyimizə, qəlbimizə, könlümüzə həkk edib, minnətdarlıq hissi ilə, dualarımızla Sizi daim yad edəcəyik.

Uca şəhadət zirvəniz qarşısında baş əyirik!..

Ruhunuz şad olsun!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Avropa İttifaqı Azərbaycanın yaratdığı reallıqları qəbul edir

Azərbaycanın suverenliyinin tam təmin edilməsini şərtləndirən 23 saatlıq antiterror əməliyyatlarından sonra Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində yeni reallıqlar yaranıb. Bu yeni reallıq göstərir ki, barışın alternativi yoxdur və bundan sonra tərəflər davamlı sülhün əldə edilməsi üçün bütün səylərini səfərbər etməlidirlər.



Bunu sülh danışıqlarında vasitəçilik missiyasını ilk gündən üzərinə götürən Avropa İttifaqı da təsdiqləyir. Bu, Aİ Şurasının prezidenti Şarl Mişelin Mətbuat xidmətinin yaydığı son bəyanatda da qeyd edilir.

Sənəddə bildirilir ki, sentyabrın 26-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, onun diplomatik müşavirləri Saymon Mordyu və Maqdalena Qrononun rəhbərliyi ilə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında görüş keçirilib. Görüşdə Fransa Prezidenti Emmanuel Makronun müşaviri Emmanuel Bonne və Almaniya kansleri Olaf Şoltszun müşaviri Yens Ploetner də iştirak ediblər.

Müzakirələr zamanı Azərbaycan və Ermənistan liderlərinin oktyabrın 5-də Avropa Siyasi İcması Sammiti çərçivəsində Qranadada keçirilməsi gözlənilən görüşlərinə dair intensiv fikir mübadiləsi aparılıb. İştirakçılar normallaşma səylərinin davam etdirilməsi üçün Qranadada mümkün görüşdən istifadə etməkdə Ermənistan və Azərbaycanın ortaq marağı olduğunu vurğulayıblar. Hikmət Hacıyev Azərbaycanın göstərdiyi humanitar yardımları və yerli əhalinin təhlükəsizliyini təmin etməklə bağlı planlar barədə geniş məlumat verib.

Bəyanatda həmçinin qeyd edilib ki, normallaşma prosesinin bütün istiqamətlərində konkret fəaliyyət və qətiyyətli kompromis həllərə ehtiyac var. Avropa İttifaqı hesab edir ki, Qranadada keçiriləcək mümkün görüşdən həm İrəvan, həm də Bakı daha əvvəl Praqada və Brüsseldə əldə edilmiş razılaşmalara uyğun olaraq, bir-birlərinin ərazi bütövlüyü və suverenliyinə sadiqliklərini açıq şəkildə bəyan etmək üçün istifadə etməlidir.

Xatırladaq ki, ötən il Praqada tərəflər arasında keçirilən görüşdə Ermənistanın baş naziri Nikol Paşinyan bir daha Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdıqlarını bəyan etmişdir. Bu ilin may ayının 17-də Avropa Şurasının Reykyavikdə keçirilən sammitdəki çıxışında Paşinyan bir daha bunu təsdiqləyərək deyib ki, Ermənistan Azərbaycanın 86 min 600 kvadratkilometrlik ərazi bütövlüyünü tanıyır. Azərbaycan da öz növbəsində Ermənistanın 29 800 kvadratkilometrlik ərazisini tanıdığını bəyan edib. Onun sözlərinə görə, 2022-ci il oktyabrın 6-da Praqada Ermənistan və Azərbaycan liderləri arasında razılaşma əldə olunub, ona əsasən, tərəflər münasibətlərini 1991-ci il Almatı Bəyannaməsi əsasında tənzimləyirlər.

Avropa İttifaqı da hesab edir ki, Azərbaycan-Ermənistan tənzimləməsinin bütün istiqamətləri üzrə konkret hərəkətlərə və qərarlı kompromis addımlara ehtiyac var.

Göründüyü kimi, bu beynəlxalq təşkilatın bəyanatı Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində yaranmış yeni reallığın dünya birliyi tərəfindən qəbul edildiyini bir daha təsdiqləyir.

Bu, həm də onu təsdiq edir ki, Azərbaycanın həyata keçirdiyi tədbirlər dövlətin öz suveren ərazisində qeyri-qanuni hərbi birləşmələrin və onların hərbi infrastrukturunun neytrallaşdırılmasına yönəlmişdir.

Hazırda Qarabağda gedən prosesləri dünya izləyir. Azərbaycan heç nəyi gizli saxlamır və bütün planlarını açıq şəkildə nümayiş etdirir. Qarabağın erməni sakinlərinin nümayəndələri ilə keçirilən Yevlax və Xocalı görüşlərində razılaşdırılmış bütün məsələlərin icrası dərhal təmin olunur. Hətta Xankəndidəki yanacaqdoldurma məntəqəsində baş verən partlayış nəticəsində yaralılara göstərilən kömək, onlara göndərilən hərtərəfli tibbi yardım, ölkəmizin şəhər və rayonlarındakı xəstəxanalara yerləşdirilmələri, sentyabrın 27-də yaralananlara tibbi yardım göstərilməsi ilə əlaqədar Xocalı yaxınlığında səhra hospitalının qurulması üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən 53 avtomobil (heyətlə birgə) və zəruri avadanlıqların göndərilməsi bunu təsdiqləyən reallıqdır.

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan nəinki mülki əhalini hədəfə götürməyib, əksinə, insanların təhlükəsizliyini təmin etmək üçün üzərinə düşən vəzifələri yerinə yetirib. Bundan başqa, Azərbaycan mülki əhalinin öz yaşayış yerlərində qalmasını istəyir, ərazidə yaşayan insanlara humanitar yardım göstərir, beynəlxalq strukturların humanitar missiyalarına şərait yaradır. Ərazidən mülki insanların çıxması məcburi xarakter daşımır. Çünki bu, onların öz istəyidir. Kimsə Qarabağda qalacaqsa, Azərbaycan vətəndaşlığını qəbul etməlidir. Bundan sonra ölkənin digər vətəndaşlarına verilən qanuni hüquqlardan yararlana bilər.

Sentyabrın 20-də xalqa müraciətində İlham Əliyev də bu məsələyə toxunaraq bir daha vurğulayıb ki, Ermənistanın keçmiş cinayətkar hərbi xuntasının azərbaycanlılara qarşı etdiyi haqsızlıqlara, cinayətlərə baxmayaraq, Azərbaycan erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmayıb. Yalnız kriminal rejimin ünsürləri, başda duranları ittiham edilib və bu gün onlar məsuliyyətə cəlb edilir, bundan sonra da ediləcəklər. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Xankəndiyə növbəti dəfə yanacaq göndərilib







Qarabağda yaşayan ermənisilli sakinlər üçün Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) məxsus yanacaqla dolu daha bir nəqliyyat vasitəsi göndərilib.

AZƏRTAC xəbər verir ki, yanacaq daşıyan avtomobil Ağdam-Əsgəran-Xankəndi yolu ilə yola salınıb.

Qeyd edək ki, yanacaq Yevlax şəhərində keçirilən görüşdə erməni sakinlərinin nümayəndələrinin bölgəyə yanacaq göndərilməsi ilə bağlı xahişləri nəzərə alınaraq Azərbaycan mərkəzi hökuməti tərəfindən göndərilib. Ötən gün də Xankəndiyə dizel və Aİ 92 markalı benzin daşıyan avtomobillərin gedişi təmin edilmişdi.

# Qarabağ bölgəsində mina-tələlər zərərsizləşdirilir

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri Qarabağ bölgəsində ərazinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə tədbirlər görür.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Qozlukörpü-Həsənli yolunda xeyli sayda piyada və tank əleyhinə mina, həmçinin partlamamış döyüş sursatları aşkarlanaraq təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib. Bundan başqa, bölmələrimiz ərazidə aşkar etdikləri partladıcı qurğular və mina-tələlərini də zərərsizləşdirirlər.

Ərazilərin minalardan təmizlənməsi tədbirləri davam etdirilir.

# FHN Xocalı yaxınlığında səhra hospitalının qurulması üçün heyətlə birgə 53 avtomobil və zəruri avadanlıqlar göndərib

Xankəndi şəhərinin girişində yanacaqdoldurma məntəqəsində baş vermiş yanğın və partlayışda yaralananlara tibbi yardım göstərilməsi ilə əlaqədar Xocalı yaxınlığında səhra hospitalının qurulması üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən 53 avtomobil (heyətlə birgə) və zəruri avadanlıqlar göndərilib.





AZƏRTAC xəbər verir ki, avtomobil karvanı Ağdam-Əsgəran-Xankəndi yolu ilə göndərilib. Qeyd edək ki, Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş yanğın Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb.

# Böyük qayıdış Xankəndidən məcburi köçkün düşmüş azərbaycanlı əhalini də əhatə edəcək

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev otuz iki il əvvəl Xankəndi şəhərindən məcburi köçkün düşmüş azərbaycanlıların bir qrupu ilə görüşüb.



Dövlət komitəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli hərbi-siyasi və diplomatik səyləri nəticəsində üç il əvvəl 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur torpaqlarının Ermənistanın işğalından azad edildiyi, həmin ərazilərdə qalan erməni birləşmələrinin və qondarma qurumun isə bu il sentyabrın 19-20-də az müddətdə icra edilən antiterror tədbirləri sayəsində tamamilə ləğv olunduğu böyük razılıq və qürur hissilə xatırladılıb. Hazırda bölgədə Ermənistan silahlı qüvvələrinə və terrorçu dəstələrə məxsus silahların müsadirəsi prosesi aparılır, Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyən ermənilərin könüllü və təhlükəsiz şəkildə ölkəmizdən çıxmasına şərait yaradılır.

Yeni yaranmış vəziyyətdə tezliklə Böyük qayıdışın Xankəndinin məcburi köçkün olan azərbaycanlı əhalisini də əhatə edəcəyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, məcburi köçkünlüklə üzləşən bütün həmvətənlərimiz kimi xankəndililər də daim dövlətimizin himayəsində olublar. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttə uyğun olaraq Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımıza daim böyük diqqət və qayğı göstərib. Məcburi köçkünlər birinci xanım Mehriban Əliyevanın həssas münasibətini hər zaman hiss edib, onun dəstək və köməyindən bəhrələniblər. Bu gün işğaldan azad edilmiş ərazilərin dirçəlişi, bərpası və yenidən qurulması, Böyük Qayıdış proqramı üzrə tədbirlərin sürətlə həyata keçirilməsi istiqamətində məqsədyönlü iş aparılır, məcburi köçkünlər mərhələli şəkildə doğma yurda dönürlər. Xankəndidən olan məcburi köçkünlərin də bu prosesə qoşulacağı gün uzaqda deyildir. Dövlət komitəsinin sədri məcburi köçkünlərin qayıdışa hazırlanması ilə bağlı həyata keçirilən tədbirlər, işğaldan azad edilmiş ərazilərdə yenidən salınmış və bərpa olunmuş yaşayış məntəqələrinə köçürülmənin gedişi və qaydaları haqqında görüş iştirakçılarını məlumatlandırıb, azərbaycanlı əhalinin Xankəndi şəhərinə qayıdışının təşkili ilə bağlı qarşıda duran vəzifələrdən danışıb, dövlətimizin başçısının bununla bağlı tapşırıqlarını onlara çatdırıb.

Görüş iştirakçıları işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycanın dövlət suverenliyinin bərpa edilməsinə görə dövlət başçısına və rəşadətli Silahlı Qüvvələrimizin mənsublarına minnətdarlıq bildirib, xalqımızın haqq işi uğrunda canını qurban verən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyiblər.

Görüşdə Xankəndidən olan məcburi köçkün icmalarının nümayəndələri, ziyalılar, ictimai fəallar, həmçinin Dövlət Komitəsi yanında İctimai Şuranın üzvləri iştirak edib, qayıdışa hazırlıq məsələlərinə dair rəy və təkliflərini səsləndiriblər.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Albertin məhv etdiyi 442 nömrəli tank gözümüzün önündə məğlub görkəmdədir

## Separatçıların işğalçılıq "simvolu" Bakıda Qənimətlər parkındadır






Qənimətlər parkındayıq...
442 nömrəli tankın bir addımlığında dayanıb işğalçılıq niyyəti ilə Şuşaya gələrkən məğlub, miskin görkəmə düşən "erməni hərb maşını"na tamaşa edirəm.

Dəstə-dəstə məktəblilər, müxtəlif dini konfessiyanın nümayəndələri, ölkəmizdə yaşayan ayrı-ayrı xalqların nümayəndələri ərazilərimizi qəsb etmək niyyəti ilə tarixi şəhərimizə doğru sürülərkən Milli Qəhrəmanımız Albert Aqarunov tərəfindən Şuşanın girişindəcə məhv edilən tankı görməyə gəlirlər...

Xəyalım məni geriyə, 1992-ci il mayın 8-də Şuşada baş verən hadisələrə aparır. Gözlərim qarşısında oda qalanıb tüstülənən şəhər, qəfil silahlı basqına məruz qalmış günahsız insanların harayları, küçələrdə sərilib qalmış cansız bədənlər gəlir... Silah səsindən qulaq tutulur, güllə dolu kimi yağır. Qədim şəhərə doğru hərəkət edən düşmənin önündə 442 nömrəli tank irəliləyir. Bu tank Şuşaya girəcək ilk tank olaraq seçilmişdi, onun komandiri Qaqik Avşaryana isə işğalçıların şəhərdə asacağı "fəxri" erməni bayrağı verilmişdi. Lakin şəhərin müdafiəsində duran yəhudiəsilli Albert Aqarunov ayağını yerə bərk dirəmişdi. "Gərək mən öləm ki, cəsədimin üstündən keçib Şuşanı işğal edəsiniz", - demişdi. Albert Aqarunov komandiri olduğu 533 nömrəli tankla Qaqik Avşaryanın idarə etdiyi tankın düz gözlüyünü nişan almışdı. Erməni sürücü-mexanik Aşot Avanesyan, atıcı-artillerist Şahen Sarkisyan elə ilk atəşlə məhv edilmişdi. O zaman televiziya əməkdaşları Albertdən müsahibə götürərkən "sən yəhudi millətindənsən, nə əcəb burada döyüşürsən", - deyə soruşanda "Azərbaycan mənim vətənimdir. Vətənimi qoruyuram" cavabını vermişdi Milli Qəhrəman Albert Aqarunov.

Albert düşmən tanklarını xüsusi metodla vurması ilə tanınırdı. O, erməni qüvvələrinə aid iki tankın birbirinə yaxınlaşma anını gözləyərək onları bir mərmi ilə məhv edirdi. Döyüş yoldaşları bu metodu "yəhudi buterbrodu" adlandırırdılar.

Milli Qəhrəman A.Aqarunov Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini, zirehli texnikasını sıradan çıxarıb. Ermənilərin bəlası olan döyüşçümüzü öldürmək üçün 5 milyon rubl pul mükafatı da ayırmışdı düşmən.

A.Aqarunov 1992-cu ilin mayın 8-də Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gəlib və döyüş meydanında qəhrəmancasına şəhid olub. Bakıda Şəhidlər xiyabanında torpağa tapşırılan qəhrəmanın dəfn mərasimində molla və ravvin eyni vaxtda dualar oxuyub. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Aqarunov Albert Aqarunoviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Nə yazıq ki o zaman Şuşanı qoruya bilmədik, Şuşa işğal olundu. Gerçəklik bu idi ki, düşmənə məğlub olub faciə yaşamışdıq. Heç ayrı-ayrı igid oğullarımızın göstərdiyi qəhrəmanlıqlardan da ürəkdolusu danışa bilmirdik. "Torpağı işğal altında olan, bir milyon insanı qaçqın düşənin qəhrəmanı olmaz" deyirdik...

Ermənilər Birinci Qarabağ müharibəsindən sonra Avşaryanın yanmış T-72 tankını bərpa edib, onu tünd-yaşıl rəngə boyayıb ağ rənglə gövdəsinə 442 nömrəsini yazıb təpənin başında üzü Şuşaya tuşlanmış vəziyyətdə saxlayırdılar. Onlar bu tankın qarşısında şəkil çəkdirir, üstündə bayraq dedikləri əski parçalarını əsdirib deyirdilər ki, "Bakıya kimi" gələcəyik... Tanklarımızı tezliklə Bakıda görəcəksiniz". Amma istəkləri gözlərində qaldı. Bəli, tanklarını Bakıda gördük, lakin küçələrimizdə yox, durmalı olduğu yerdə - Hərbi Qənimətlər Parkında...

Onlar gəlmədilər, biz gətirdik... Azərbaycan əsgəri bədniyyətli düşməni darmadağın edib tanklarını, toplarını aldı əlindən... Arzuları, da bəd niyyətləri kimi ürəklərində dəfn edildi... Həm də çox "rahat", məhv edilmiş erməni hərb maşınının simvolu kimi evakuaturla gətirdik...

Düşmənin "qələbə" simvolu hesab etdiyi 442 nömrəli tank 30 il sonra 19 sentyabr 2023-cü ildə başlanıb, 20 sentyabrda bitən lokal xarakterli antiterror tədbirlərinin nəticəsi olaraq layiq olduğu yerdə - Hərbi Qənimətlər Parkında "işğalçılığın lənətlənlənmiş simvolu" kimi park edilib. İndi Qarabağda hər yerdən işğalçılığın simvolları götürülür... Günahsız insanları amansızlıqla qətlə yetirən, uşaq qatili Monte Melkonyanın "abidəsi", digər separatçıların portretləri lazım olduğu yerə göndərilir...

Qənimətlər parkını nəzərdən keçiririk. Bu geniş ərazidə düşməndən alınmış, onun işğalçılıq, öldürmək, məhv etmək niyyəti ilə silahlanaraq üstümüzə gəldiyi müxtəlif növ minlərlə silah var. Bura bir zamanlar gur-gur guruldayan, ölümsaçan silahların dəfn olunmamış məzarlığına bənzəyir. Onları bir zamanlar bədniyyətlə torpağımıza sürənlərin indi dilləri batıb miskin, rəzil duruma düşdükləri kimi, döyüş texnikaları da əbədi olaraq susdurulub. "Dəmir yumruğ"un "sındırdığı" bu maşınlar sanki düşdükləri miskin durumdan utanırmışlar kimi görünürlər.

Bu hərbi texnikalar, silahlar hər dəfə ziyarətçiləri tərəfindən lənətləndikcə əlacları olsa dil açıb danışar, "günahkar biz deyilik, günahkar bizdən işğalçılıq niyyətlərini gerçəkləşdirmək üçün istifadə edən bədxahlardır", deyərlər.

Biz bu silahları Hərbi Qənimətlər Parkına yalnız gücümüzü, qüdrətimizi, Azərbaycan əsgərinin qəhrəmanlığını nümayiş etdirmək üçün yox, həm də bütün dünyaya nümayiş etdirmək, erməni xislətini göstərmək üçün yığmışıq.

Biz müharibə istəmədiyimizi, öz torpaqlarımızda təcavüzə məruz qaldığımızı nümayiş etdirmək, eyni zamanda bütün işğalçıların faciəvi sonluğunun necə bitdiyini anlatmaq üçün bura cəmləmişik. Düşdüyü vəziyyətdən, tutduğu əməldən, bəd niyyətindən düşmən utansın, səhvini başa düşsün deyə, onların məğlub olmuş ordusunun silah-sursatını nümayiş etdiririk... Qoy kor gözlər, onları silahlandıranlar, Azərbaycanın ən səfalı, bərəkətli torpaqlarının altını üstünə çevirənlərə, bu ərazilərdə silah bazalarını yaradanlara dərs olsun deyə Hərbi Qənimətlər Parkını düzəltmişik.

İşğalçı düşmən tankını görmək üçün buraya gələn Gürcü Sparad Yəhudiləri Dini İcmasının sədri Zamir İsayevlə söhbət zamanı o dedi: "Azərbaycan illər, əsrlər böyu multikultural dəyərlərlə yaşayan bir cəmiyyət kimi tanınıb. Bu gözəl ənənə Azərbaycan dövləti tərəfindən hazırda yaşadılır, davam etdirilir. Azərbaycan dünyada multikulturalizmin ən nümunəvi məkanı hesab edilir. Dövlətimiz bu siyasəti ilə dünyanın bir sıra ölkələrinə, hətta Avropa ölkələrinə örnək ola biləcək iş görür. Azərbaycanda yaşayan yəhudi xalqının bir nümayəndəsi, yəhudi dini icmanın sədri olaraq deyə bilərəm ki, bu ölkədə birgəyaşayış qaydalarına, başqa millətlərə, xalqlara olan hörmət dostluğun, qardaşlığın nümunəsi örnək olaraq dünyaya göstərilməlidir. Bu ölkədə yaşayan xalqlar heç vaxt, heç bir ayrıseçkilikdən, ikili münasibətdən zərər çəkməyib. Azərbaycanda hazırda 30 mindən çox yəhudi yaşayır. Bizə həyatımızı yüksək səviyyədə yaşamağımız üçün hər cür şərait yaradılıb. Eyni zamanda onu da deyə bilərəm ki, burada yaşayan xalqların nümayəndələri özlərini bu vətənin övladları hesab edir, bu xalqın tərkib hissəsi bilirlər. Bu vətənin sevinci də, kədəri də birdir, hamımızındır. "Dəmir yumruq" yalnız gücümüzün, qüdrətimizin deyil, həm də birliyimizin, bərabərliyimizn simvoludur. Bizə bu vətəndə milli kimliyimizə görə fərq qoyulmadığı kimi, biz də vətən yolunda lazım gəldiyi məqamda canımızı qurban verməyə hazır olduğumuzu əməlimizlə göstərmişik. Başına yığışdığımız, torpaqlarımıza mənfur niyyətlə soxulmuş bu tankı da yəhudi xalqının yetişdirdiyi, Azərbaycanın qəhrəman oğlu Albertin vurması da qardaşlığımızı, vətən sevgimizi təsdiq edən nümunədir. Anım Günü də, Zəfər bayramı da bu torpaqda yaşayıb, bu vətənin qədrini bilən bütün layiqli vətəndaşların müqəddəs günləridir. Biz hamımız qazanılan uğurlara, əldə olunan qələbələrə, haqqın, ədalətin öz yerini tutduğuna görə iftixar duyan insanlarıq. İnanmaq istərdik ki, aldanıb, səhv edib günaha batmış ermənilər də səhvlərini başa düşsünlər".

Bəli, biz torpağımıza xoşniyyətlə gələnləri duz-çörəklə, hörmətlə qarşılamağı bacardığımız kimi, bədniyyətlə gələnlərə bu torpağı onlara məzar etməyin də yolunu bilirik...

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Xankəndinin də işıqlı günləri başladı

"Biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq, görün, nə qədər böyük işlər görürük, cəmi iki il ərzində. O bölgədə bəlkə də 30 il ərzində heç 1 faiz də iş görülməyib - elektrik stansiyaları, körpülər, tunellər, su anbarları, yaşayış binaları, kəndlər, şəhərlər qurulur.

Cəmi iki il ərzində. Heç bir yardım almadan, özümüz. İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu, bizim əlimizdədir".

Prezident İlham Əliyevin xalqa bu il sentyabrın 20-dəki müraciətindən sanılı günlər keçməsinə baxmayaraq, dediyi bu sözlər artıq həyatda öz real nəticəsini tapmaqdadır. Bu gün Xankəndidə artıq Azərbaycan işığı yanır! İşıq isə böyük güc, vacib şərtdir. İşıq olan yerdə rahatlıq, inkişaf, həyat olur!

Xatırladaq ki, dövlətimizin başçısının tapşırığı ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli məqsədilə Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi altında işçi qrup yaradılıb. Buraya İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Kənd Təsərrüfatı, Daxili İşlər, Səhiyyə, Elm və Təhsil nazirlikləri, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəriqaz" İstehsalat Birliyi, Avtomobil Yolları Dövlət Agentliyi və digər aidiyyəti qurumlar daxildir. İşçi qrup cəmi bir neçə gün ərzində bir sıra zəruri tədbirlər həyata keçirib.

Məlum olduğu kimi, sentyabrın 21-də Yevlax şəhərində keçirilən görüşdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilk növbədə bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsini xahiş etmişdilər. Bərdə-Əsgəran-Xankəndi yolu vasitəsilə sentyabrın 23-də onlara artıq 24 ton benzin, 40 ton dizel yola salınıb. Ondan bir gün əvvəl isə Fövqəladə Hallar Nazirliyi tərəfindən erməni sakinləri üçün 40 tonluq ərzaq məhsulları və gigiyenik vasitələrdən ibarət 2 yük avtomobili və 2 çörək dolu avtomobil göndərilib. Erməni sakinlərin ilkin tibbi yardım və qida ilə təmin olunması məqsədilə həmin nazirlik tərəfindən Ağdam, Füzuli və Kəlbəcərdə 1000 nəfərlik çadır düşərgələri qurulub.



Ərazidəki polis qüvvələri, hərbi heyət və mülki işçilər tərəfindən erməni sakinlərə yerlərdə ilkin tibbi yardım və müvafiq dəstək göstərilir.

İşçi qrup tərəfindən tədbirlər davam edir. Rusiya sülhməramlı qüvvələrin kontingentinin şəxsi heyətinin istifadəsi, eləcə də sülhməramlılar vasitəsilə mülki əhaliyə çatdırılması üçün Laçın-Xankəndi yolundan ərzaq və gündəlik tələbat mallarının keçidi təmin olunur. Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən Ağdam-Əsgəran-Xankəndi və Laçın-Xankəndi yolu ilə ərzaq, dərman preparatları və uşaq qidasından ibarət yüklərin aparılmasına, təşkilatın Bakı və Cenevrə ofislərindən Xankəndidə olan alt-ofisinə əlavə heyətin ezam olunmasına şərait yaradılır. BQXK müraciəti əsasında tibbi yardıma ehtiyacı olan şəxslərin Ermənistana təxliyəsi üçün zəruri imkanlar yaradılır.

Qeyd etdiyimiz kimi, Xankəndi şəhərinin Azərbaycan enerji sisteminə qoşulması da artıq təmin edilib. Bu, Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə keçirilmiş görüşdə müzakirə edilən məsələlərin həlli istiqamətində təxirəsalınmaz işlərin davam etdirilməsinə aydın misaldır. Azərbaycan Prezidentinin Administrasiyasından bildirilib ki, növbəti addım olaraq, Xankəndi şəhərinin Ermənistanın enerji sistemindən ayrılaraq Azərbaycan enerji sisteminə qoşulması təmin edilib. Belə ki, hələ 2021-ci ildə "Azərenerji" tərəfindən tikilən və Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən "Şuşa" yarımstansiyasında Xankəndi üçün ehtiyat yuvalar quraşdırılmışdı. 2023-cü il sentyabrın 19-dan etibarən "Azərenerji" tərəfindən "Şuşa" yarımstansiyası yaxınlığında əlavə 110 kV-luq yüksək gərginlikli dayaqların quraşdırılmasına və Xankəndi xətti ilə əlaqələndirilməsi işinə başlanılıb. Aparılan işlər nəticəsində artıq proses yekunlaşıb. Paralel olaraq "Azərenerji" və "Azərişıq" əməkdaşları ötürücü və paylayıcı şəbəkəni, mühafizə sistemlərini təftiş etdikdən sonra xəttə gərginlik verilib. Beləliklə, indi Xankəndidə artıq Azərbaycan işığı yanır.

Prezident İlham Əliyev Qarabağda yaşayan erməni əhalinin bütün hüquqlarının - təhsil, mədəniyyət, din, munisipal seçki hüquqlarının təmin olunacağını bəyan edib: "Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi - Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax bu gözəl ab-hava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik. Biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq".

Bəli, bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. Prezidentimiz tövsiyə edir: "O şansı əldən verməsinlər. Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 343 **QƏRAR** Bakı şəhəri, 26 sentyabr 2023-cü il

## “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 aprel tarixli 117 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 aprel tarixli 117 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 4, maddə 588) 10-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

"10. Bu Qərarın 8-ci hissəsi 2023-cü il yanvarın 1-dən tətbiq edilir, digər hissələri isə 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 344 **QƏRAR** Bakı şəhəri, 26 sentyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmiş “Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 876-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 172 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 596, № 12, maddə 1655; 2016, № 4, maddə 818; 2019, № 11, maddə 1861) ilə təsdiq edilmiş "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4-cü bənddən "müvafiq məsələlər barəsində" sözləri çıxarılsın və həmin béndə "hazırlanması" sözündən sonra "(öyrənilməsi)" sözü əlavə edilsin.

2. 3.1-ci bəndin ikinci cümləsində "məsələ" sözü "layihə" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 345 **QƏRAR** Bakı şəhəri, 26 sentyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2013-cü il 5 noyabr tarixli 320 nömrəli və “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında” 2021-ci il 26 aprel tarixli 112 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 744-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457; 2015, № 12, maddə 1584; 2016, № 11, maddə 1976; 2019, № 3, maddə 514, № 7, maddə 1318; 2020, № 11, maddə 1410; 2021, № 3, maddə 273, № 10, maddə 1163; 2022, № 7, maddə 819, № 9, maddə 1100, № 12, maddə 1552; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 sentyabr tarixli 323 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.1.3-cü və 2.4.4-cü yarımbəndlərə "təqdim olunmuş" sözlərindən sonra "(bu Qaydanın 2.8-ci bəndinin tələbləri nəzərə alınmaqla) sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. Bu Qaydanın 2.1-ci, 2.2-ci, 2.4-cü və 2.5-ci bəndlərində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Bu sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.";

1.3. "Qeyd"in mətni 2.9-cu bənd hesab edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415; 2022, № 7, maddə 819, № 9, maddə 1101) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 2.4-cü bəndinə "Təqdim edilmiş" sözlərindən sonra "(bu Qaydaların 2.3-cü bəndinin ikinci cümləsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İcma: "BMT-nin insan hüquqları üzrə ali komissarı azərbaycanlılara qarşı ayrı-seçkiliyə yol verib"

BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türk Ermənistan və Azərbaycan ilə bağlı verdiyi 2023-cü il 26 sentyabr tarixli bəyanatında Azərbaycana və azərbaycanlılara qarşı qərəzliliyə və ayrı-seçkiliyə yol verib.

AZƏRTAC xəbər verir ki, bu barədə icmanın açıqlamasında bildirilib.

Açıqlamada, həmçinin qeyd olunub: "Ali komissara çox yaxşı məlumdur ki, Ermənistan öz ərazisindən və işğal etdiyi Azərbaycan ərazilərindən bir milyona yaxın azərbaycanlını qovaraq, onların hüquq və azadlıqlarını kobud şəkildə pozub. Ermənistan hökuməti bu ölkənin ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıtmaq hüququnun reallaşmasına imkan vermir. Ali komissar nədənsə bir dəfə də olsun bu məsələ barədə danışmayıb və Qərbi Azərbaycan İcmasının bu barədə müraciətini cavabsız qoyub.

Xatırladaq ki, Qərbi Azərbaycan İcması Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşır və sülhə, birgəyaşayışa, barışığa və reinteqrasiyaya əsaslanan gündəliyə sahibdir.

Belə olan təqdirdə, ali komissarın beynəlxalq hüquqa hörmətsizlik edən, reinteqrasiyanı rədd edən və separatçı yanaşmaya malik qüvvələri dəstəkləməsi və Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququnu görməzdən gəlməsi azərbaycanlılara qarşı etnik və dini zəmində ayrı-seçkilikdir. BMT-nin insan hüquqları üzrə ali komissarının bu ayrı-seçkiliyə yol verməsi siyasi baxımdan yanlış olmaqla bərabər, bütövlükdə insan hüquqları sahəsində beynəlxalq sistemi kökündən sarsıdır.

Biz ali komissar Türkü daşıdığı ali vəzifənin mandatına uyğun hərəkət etməyə, rəhbərlik etdiyi təsisatın bəzi dairələrin əlində ucuz siyasi alətə çevrilməsinə imkan verməməyə, dini və etnik zəmində qərəz və ayrı-seçkiliyə son verməyə, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıtmaq hüququna dəstək verməyə və hüquqlarımızın müdafiəsi xahişi ilə 2023-cü il 10 avqust tarixində göndərdiyimiz müraciətə cavab verməyə çağırırıq".

# Azərbaycan XİN BMT-nin insan hüquqları üzrə ali komissarına cavab verib

"Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bağlı atdığı bütün addımlar, o cümlədən son 24 saatlıq antiterror tədbirləri beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğun şəkildə həyata keçirilib. Azərbaycan hər zaman həyata keçirdiyi tədbirlər çərçivəsində mülki əhalinin və mülki obyektlərin qorunmasına sadiq olub".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türk bölgədəki mövcud vəziyyət və etnik azlıqların hüquqlarının qorunması öhdəliyi barədə fikirlərinə dair şərhində yer alıb.

Bildirilib ki, Ermənistanın 30 ilə yaxın hərbi işğalı zamanı kütləvi qətllərə məruz qalan azərbaycanlıların öz hüquqlarından məhrum olmasına baxmayaraq, Azərbaycan öz ərazisində olan bütün etnik azlıqların, o cümlədən ermənilərin hüquqlarının qorunmasına həmişə sadiq olub. Azərbaycan rəhbərliyi bunu dəfələrlə şifahi şəkildə bəyan edib.

Təəssüf ki, indiyədək heç kim bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını qorumağa, o cümlədən onların təhlükəsizlik və ləyaqət şəraitində qayıtmaq hüquqlarını təmin etməyə dair çağırış etməyib. Azərbaycanın 44 günlük müharibədən, o cümlədən antiterror tədbirləri həyata keçirildikdən sonra itkin düşmüş şəxslərin yerini tapmaq üçün kömək göstərməsinə baxmayaraq, 4000-ə yaxın itkin düşmüş azərbaycanlıya qarşı eyni diqqət və həssaslığı müşahidə etmirik.

"Ümid edirik ki, ali komissarın qurbanların hüquqları baxımından günahkarların məsuliyyətə cəlb olunması və cəzalarını çəkmələri məsələsinin həllini tapması üçün şəffaf istintaq aparmaq çağırışları, Azərbaycanın 30 ilə yaxın müddətdə Xocalı soyqırımı, digər kütləvi qətliam və insanlıq əleyhinə cinayətlərdə təqsirli şəxsləri cəzalandırmaq istiqamətində çağırışlarına məhəl qoymayan beynəlxalq ictimaiyyət tərəfindən ciddi şəkildə qəbul ediləcək.

Biz, həmçinin Ermənistanın, BMT nümayəndəsinin bu çağırışına əməl etməklə, bu ölkənin indiki ərazisindən kütləvi surətdə qovulmuş azərbaycanlıların hüquqlarını inkar etməyəcəyinə və onların öz evlərinə qayıtmaq hüquqlarını təmin etmək üçün dialoqa şərait yaradacağına ümid edirik", - deyə mətbuat katibi vurğulayıb.

# *Qarabağda yeni mərhələnin başlanğıcı:* Azərbaycanın birgəyaşayış təcrübəsi

Qədim və zəngin tarixə malik olan, Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan mədəniyyətlərin, sivilizasiyaların, dinlərin qovuşduğu məkandır.

Ölkəmizdə ta qədim dövrlərdən müxtəlif etnik-dini köklərə mənsub olan insanlar heç bir diskriminasiyaya məruz qalmadan birgəyaşayış ənənələrini günümüzədək qoruyub saxlamışdır. Birlikdə yaşamaq ənənəsinin dövlət tərəfindən qayğı ilə əhatə olunmasının məntiqi nəticəsidir ki, ölkəmiz dünyada ən yaxşı nümunələrdən biri kimi qəbul olunur.

Həm demokratik dəyər, həm də multikultural cəmiyyətin ən ali keyfiyyətlərindən olan birgəyaşayış təcrübəsi dövlətimiz tərəfindən müasir dövrün çağırışlarına, tələblərinə uyğun istiqamətdə daha da inkişaf etdirilir. Çünki birgəyaşayış sağlam ictimai münasibətlər mühitinin formalaşması, fərdi və sosial planda təhlükəsizliyin təmin olunması baxımından əvəzedilməz dəyərdir. Xüsusilə, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra dini etiqad azadlığının bərqərar olunması, dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşa bərabər hüquqların tanınması bütün dini icmalar, konfessiyalar qarşısında geniş imkanlar açmışdır. Bunun nəticəsidir ki, Azərbaycanda müxtəlif dinlərin, etnik qrupların nümayəndələri dinc birgə yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Azərbaycan dünyada məscid, kilsə və sinaqoqun bir arada olduğu, eləcə də müxtəlif dinlərin mənsublarının heç bir ayrı-seçkilik halı ilə qarşılaşmadıqları nadir ölkələrdən biridir. Bundan başqa, bir çox dini tədris müəssisələri də ölkə ərazisində sərbəst şəkildə fəaliyyət göstərir və onlara dövlət tərəfindən lazımi dəstək verilir.

Ölkəmizdə müxtəlif millətlərə və dinlərə mənsub insanların hüquqlarının, o cümlədən onlar arasında dözümlülük mühitinin, birgəyaşayış ənənəsinin dövlət səviyyəsində qorunub-saxlanılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Çoxkonfessiyalılığı Azərbaycan xalqının sərvəti kimi dəyərləndirən Heydər Əliyev bu reallığı belə ifadə etmişdir: "Azərbaycan milliyyətindən və dinindən asılı olmayaraq, müxtəlif xalqların nümayəndələrinin doğma vətənidir. Onlar həmişə mehriban qardaşlıq, qarşılıqlı anlaşma və sıx əməkdaşlıq şəraitində yaşamış, vətənin sevincini də, kədərini də birgə bölüşmüşlər. Öz tarixi ənənələrinə sadiq qalan müstəqil, demokratik Azərbaycan dövlətində bu gün də dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmadan bütün vətəndaşların vicdan azadlığı, dini etiqad sərbəstliyi təmin edilmişdir".

Günümüzdə ölkədə mövcud olan tolerant və birgəyaşayış mühitinin daha da möhkəmlənməsinə xüsusi həssaslıqla yanaşan Azərbaycan Prezidenti İlham Əliyev bu ənənəni daha da inkişaf etdirərək dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir: "Bu gün dünyanın tolerantlıq örnəyinə çevrilən Azərbaycanda ayrı-ayrı din və təriqətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin, multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Xüsusilə vurğulamaq istərdim ki, vaxtilə sovet rejimi tərəfindən etiqad və vicdan azadlığının qadağan edildiyi ölkəmizdə indi bütün xalqların və dinlərin nümayəndələrinin rahat şəkildə və mehriban ailə kimi yaşaması müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biridir".

Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə sentyabrın 19-da Qarabağda Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin uğurla başa çatmasından sonra erməni sakinlərinin reinteqrasiyası məsələsi daha da aktuallaşıb. Sentyabrın 21-də Azərbaycanın Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə Yevlaxda, eləcə də sentyabrın 25-də müzakirələrin davam etdirilməsi məqsədilə Xocalıda keçirilən görüşdə Azərbaycanın gələcəkdə birgəyaşayışla bağlı baxışları onlara çatdırılıb. Dövlətimiz tərəfindən bu proseslərin tənzimlənməsi ilə bağlı müvafiq komissiya yaradılıb. Əslində, erməni separatçıları uzun illər belə bir fikir formalaşdırmağa çalışırdılar ki, guya "Azərbaycan Qarabağda yaşayan erməni sakinlərə aqressiv münasibət sərgiləyir, onlara qarşı etnik təmizləmə siyasəti həyata keçirəcəkdir. Bu səbəbdən də Qarabağda yaşayan erməni sakinlərinin Azərbaycana reinteqrasiyası mümkün deyil". Ancaq Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, çoxmillətli, çoxkonfessiyalı dövlət olan Azərbaycanda bütün vətəndaşlar qanun qarşısında bərabərdir. Dövlət başçımız antiterror tədbirlərinin dayandırılması ilə bağlı xalqa müraciətində bu məqama xüsusi diqqət yetirərək bildirdi ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir. Deməli, Qarabağda yaşayan və Azərbaycan vətəndaşlığını qəbul edən erməni sakinləri də eyni hüquqlardan faydalanacaqlar. Çünki tarix boyu öz multikultural və birgəyaşayış dəyərləri ilə seçilən Azərbaycan xalqı bu ənənələrə hər zaman olduğu kimi, bu gün də böyük əhəmiyyət verir. Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin reinteqrasiyası məsələsi daha çox qarşı tərəfin necə addım atacağından asılıdır. Əgər ölkəmizdə bütün xalqların və dinlərin nümayəndələri birgə yaşamağı bacarırlarsa, yalnız Qarabağda yaşayan erməni sakinlər bundan imtina edirlərsə, deməli, problemi illərdir yanlış ideologiya ilə zəhərlənmiş düşüncələrində görməlidirlər. Onlar düşmənçiliyə, kinə, nifrətə son qoya bilsələr, birgəyaşayışın mümkün olacağı şübhəsizdir və bu, Cənubi Qafqazda sülhün bərqərar olmasına ciddi töhfə verəcəkdir. Azərbaycan ərazisində yaşayan bütün xalqların və dinlərin nümayəndələrinə yaradılan yüksək şəraitin Qarabağda yaşayan və Azərbaycan vətəndaşlığını qəbul edən erməni sakinlərə də şamil olunacağını Azərbaycan Prezidenti dəfələrlə bəyan edib. Dövlət başçımız sentyabrın 20-də xalqa müraciətində də bildirdi ki, bütün haqsızlıqlara, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq: "Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar. ...Onların bütün hüquqları təmin ediləcək - təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları. Yəni Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi - Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax bu gözəl ab-hava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik".

Nəticə etibarilə, dövlətimiz milli mənsubiyyətindən, dinindən, irqindən asılı olmayaraq, bütün vətəndaşların təhlükəsiz həyat şəraitini necə təmin edirsə, Qarabağda yaşayan və Azərbaycan vətəndaşlığını qəbul edən erməni sakinlərinin də bütün hüquqlarının qorunmasına və təhlükəsiz yaşamasına təminat verəcəkdir. Çünki Azərbaycan tarix boyu multi-etnik və çoxkonfessiyalı ölkə olduğu üçün onun tarixin sınağından çıxmış birgəyaşayış təcrübəsi bütün dünyada nümunə kimi göstərilir. Təsadüfi deyil ki, Qarabağda yaşayan erməni Laçın sərhəd-buraxılış məntəqəsində Azərbaycan Televiziyasına müsahibə verərkən, vaxtilə azərbaycanlılarla mehriban yaşadıqlarını, birgəyaşayış ənənəsinin mövcud olduğunu açıq etiraf etdilər. Bu baxımdan Azərbaycan vətəndaşlığını qəbul edən və xalqımızla dinc yanaşı yaşamağı seçəcək ermənilərin reinteqrasiyası və təhlükəsiz yaşaması üçün hər cür şəraitin yaradılacağı şübhəsizdir. Artıq Qarabağın erməni sakinləri də Azərbaycan cəmiyyətinə inteqrasiyadan başqa çıxış yolunun olmadığını və onlar üçün azərbaycanlılarla birgə yaşamağın daha yaxşı gələcək vəd edəcəyini anlamağa başlayıblar.

**Səyavuş HEYDƏROV,**
*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini*

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ





## Əsrin möcüzəsi

*Cənab Ali Baş Komandan,
var olun sizi,
nə o yeriş
yaddan çıxar,
nə o yol,
nə iz.
Dəyişdirdi
Azərbaycan
tariximizi,
Qarabağda
o şahanə
bir gəzintiniz.*

*Dedilər ki,
Atabəydi, -
Cahan Pəhləvan,
qədim ata torpağını
gəzir vüqarla.
O yerişdən tanımışdı,
sizi tanıyan,
doğma ellər
alqışladı
bir iftixarla.*

*Hərbi zəka,
"Dəmir yumruq",
44 Gün və Xalq! -
əsrin hələ görmədiyi
möcüzəsiydi.
Azərbaycan
Avropanı
heyran qoyacaq! -
Ulu Öndər özü deyib,
tövsiyəsiydi.*

*Cənab Ali Baş Komandan,
var olun sizi,
nə o yeriş
yaddan çıxar,
nə o yol,
nə iz.
Dəyişdirdi
Azərbaycan
tariximizi,
Qarabağda o şahanə
bir gəzintiniz.*

*Nəriman HƏSƏNZADƏ,
Xalq şairi*

# 434295 döyüş sursatı, 61 artilleriya silahı, 26 zirehli texnika...

## Antiterror tədbirləri qeyri-qanuni erməni silahlı dəstələrinin tam məhvi ilə nəticələndi

44 günlük İkinci Qarabağ müharibəsində XXI əsrin "smart savaşı"nı həyata keçirən Azərbaycan Ordusu bir daha gücünü-qüdrətini dünyaya nümayiş etdirdi. Bu tarixi Zəfərdə Ermənistanın öz silahlı birləşmələri haqqında yaratdığı miflər məhv oldu və "keçilməz" adlandırdığı sədlər darmadağın edildi.

Bu savaşda düşmənin böyük canlı qüvvəsi, eləcə də hərbi texnikası sıradan çıxarıldı. Bununla yanaşı, Azərbaycan Ordusu tərəfindən düşmənin xeyli sayda hərbi texnikasını (2994285 ədəd müxtəlif çaplı döyüş sursatları, 101 tank, 63 PDM, 1 PDM KŞ, 8 BRDM-2, 169 top və haubitsa, 64 minaatan, 97 TƏİRK, 358 tank əleyhinə idarəolunan raketlər, 635 qumbaraatan, 3615 atıcı silah, 11 Şilka ZQ-23-4, 21 9M331 TOR kompleksi İZR-i (raketi), 138 "İqla-S", "İqla", "İqla-1" məmulatı, 6 "Strela-2" məmulatı, 55 "İqla-S", "İqla", "İqla-1", "Strela-2" buraxıcı mexanizmi, 120 minik avtomobili, 512 yük avtomobili, 10 traktor) qənimət kimi götürüldü.

Bundan başqa, düşmənin 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdıldı.

Ermənistan ordusundan qənimət kimi götürülmüş texnikaların bir hissəsi 2020-ci il dekabrın 10-da Bakıda hərbi paradda nümayiş etdirildi və bu gün onlar 2021-ci ilin aprelində Bakıda açılmış Hərbi Qənimətlər Parkında sərgilənir.




Bu gün isə onların sırası bir qədər də genişlənib. Belə ki, sentyabrın 19-da Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində həm separatçıların xeyli sayda canlı qüvvəsi məhv edilib, həm də qoyub qaçdıqları hərbi texnikalar qənimət kimi götürülüb.

Müdafiə Nazirliyi sentyabrın 27-dək Qarabağ bölgəsində müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə məlumat yayıb. Bildirilir ki, ordumuz tərəfindən 434295 döyüş sursatı, 1132 atıcı silah və qumbaraatan, 61 artilleriya silah, 26 zirehli texnika, 235 HHM vasitələri, 2732 təchizat və ləvazimatlar, 231 optik və digər cihazlar, 125 avtomobil texnikası, 21 qoşqu müsadirə edilib.

Yəqin ki, bu, hələ son deyil. Amma bu göstəricilər bir daha onu deməyə əsas verir ki, erməni silahlı birləşmələri məhv edilib.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# 28 sentyabr 2020-ci il

## ZƏFƏR gündəliyi



Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər şəhəri atəşə tutulur.

Müdafiə Nazirliyinin rəhbərliyi qarşı tərəfi sonuncu dəfə xəbərdar edir ki, tərəfimizdən adekvat cavab tədbirləri görüləcək.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycanda qismən səfərbərlik elan edilməsi ilə bağlı sərəncam imzalayır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə tapşırılır ki, təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat məsələlərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.



❖ ❖ ❖

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda ordumuzun apardığı əks-hücum əməliyyatları genişlənir. Düşmənin müqavimət göstərdiyi mövqelərə raket-artilleriya və aviasiya zərbələri endirilir.

Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənir, düşmən xeyli itki verir. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar zamanı düşmənin xeyli sayda hərbi texnikası məhv edilir:

- 24 ədəd tank və digər zirehli texnika;
- 15 ədəd "OSA" zenit-raket kompleksi;
- 18 ədəd pilotsuz uçuş aparatı (PUA);
- 8 ədəd artilleriya qurğusu;
- 3 silah-sursat anbarı.

❖ ❖ ❖

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri, podpolkovnik Lernik Vardanyan məhv edilir, onun tabeliyində olan hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalır.

Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospitallarda və mülki xəstəxanalarda yer qıtlığı yaranır, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

Ermənistan tərəfi hər zaman olduğu kimi, yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir.

❖ ❖ ❖



Fransa Prezidenti Emmanuel Makron Prezident İlham Əliyevə zəng edir. E.Makron təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayır.

Amma İlham Əliyev fransalı həmkarının diqqətinə çatdırır ki, düşmən şüurlu şəkildə danışıqlar prosesini pozur və bu ölkənin rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı dövlətimizin başçısı bildirir ki, Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Ordusu buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Bu səbəbdən də Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət bu ölkənin siyasi və hərbi rəhbərliyinin üzərinə düşür. Telefon söhbəti zamanı tərəflər diplomatik kanallar vasitəsilə təmasların həyata keçirilməsi barədə razılığa gəlirlər.

❖ ❖ ❖

Müdafiə Nazirliyi tərəfindən Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların (BMT, Aİ, BQXK) ölkəmizdəki nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı təcavüzü, cəbhə xəttində yaranmış vəziyyət, qoşunlarımızın əks-tədbirləri və yaranmış əməliyyat şəraiti haqqında məlumat verilir.

Nümayəndələr düşmənin itkiləri, azad edilmiş ərazilər və yüksəkliklər, o cümlədən düşmənin təxribatları və dezinformasiya fəaliyyətləri haqqında ətraflı məlumatlandırılır.

❖ ❖ ❖

Yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən artilleriya bölmələrinə zərbələr endirilir.

Artilleriyaçılarımızın sərrast atəşi nəticəsində ağır itkilərə məruz qalan düşmən bölmələri yerləşdiyi atəş mövqelərindən geri çəkilməyə məcbur edilir. Qeyd edək ki, həmin artilleriya bölmələri Ermənistan ordusunun 5-ci dağatıcı alayının tərkibində idilər.

❖ ❖ ❖



BMT-nin baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla Prezident İlham Əliyev arasında videokonfrans formatında görüş olur.

Ali Baş Komandan baş katibə Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatla bağlı, hadisələrin gedişinə dair məlumat verərək qeyd edir ki, sentyabrın 27-də Ermənistan təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutub və bunun nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olublar. Azərbaycan tərəfi özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Prezident qeyd edir ki, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllü dəstələri yaradıb.

Dövlət başçısı söhbət zamanı onu da xatırladır ki, Ermənistanın yeni müharibəyə hazırlaşmasını sentyabrın 24-də, müharibənin başlamasından 3 gün öncə BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışında diqqətə çatdırıb. Qeyd edək ki, həmin müzakirələrdə İlham Əliyev dünya birliyinə müraciət edərək Ermənistanın bu hazırlıqlarına müşahidəçi qalmamağa çağırmışdı.

Söhbət zamanı İlham Əliyev bir daha vurğulayır ki, Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



Səndən ötrü can verməyə cümlə hazırız,
Səndən ötrü qan tökməyə cümlə qadiriz!..

# "Gör necə qəhrəman olacam"

## Sözünə sadiq igid kimi son damla qanınadək savaşıb əbədiyaşarlıq qazandı









**Həmin gün özündə deyildi. Cismi evdə, ruhu başqa yerdə idi...**

Ətrafındakı hər kəsi görür, amma dediklərini eşitmirdi...

"O" məşum zəng gəldikdən sonra isə, həmişə Əlihüseynin sevinc, gülüş səsləri ilə dolan evləri əbədi olaraq kədərli sükuta, zülmətə qərq oldu...

Bir andaca dünyası qaralan, beli bükülən ananın qulaqlarında "ana, gör sənin oğlun necə qəhrəman oğul olacaq...", - deyən qürurlu bir səs dayanmadan təkrarlanmağa başladı.

Bu, ana torpaq uğrunda sinəsini düşmən mərmisinə sipər edən cəsur Azərbaycan oğlu Əlihüseyn Məmmədovun şəhadətə ucalmazdan öncə anası Arzu xanıma dediyi son sözləri idi.

Beləcə, vətəninə canı qədər bağlı olan, torpağını anası qədər sevən Əlihüseyn son dəfə anasına dediyi kimi, düşmənə qarşı igidliklə vuruşmuş, müqəddəs torpaq uğrunda qəhrəmancasına şəhid olaraq şərəfli adını Azərbaycan tarixinə yazmışdı.

### "Söz ver mənə, işdir birdən ölsəm, mənim üçün ağlama"

Əlihüseyn Elşad oğlu Məmmədov 1998-ci ildə Bakıda ziyalı ailəsində dünyaya gəlib. Uşaqlıqdan qoçaqlığı, vətənpərvərliyi ilə yaşıdlarından seçilirdi. Şəkidə orta məktəbi bitirərək 2016-cı ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Energetika mühəndisliyi" fakültəsinə daxil olur. Məktəb və tələbəlik illərində mərdliyi, ədalətsevərliyi, mədəniyyəti ilə həmişə seçilir və sevilir.

Universitetə qəbul olduğu andan elə hey ali təhsili bitirib hərbi xidmətə getmək üçün tələsirdi. O, diplom müdafiəsi üzrə işlərini tamamladıqdan sonra bütün fikrini tamamilə hərbiyə yönəltmişdi. Gözü yolda, hərbi komissarlıqdan gələcək məktubda idi.

2020-ci ilin yayında Əlihüseyn evə gələrək, "Hərbi komissarlığa getdim, komissiyadan keçdim, iyulun 7-si gedirəm", - deyərək əlindəki qeydiyyat vərəqini sevinclə anasına göstərdi.

Yaddaşına ömürlük həkk olunan o günlə bağlı anası Arzu Məmmədova deyir ki, Əlihüseynin sevincinin hədd-hüdudu yox idi, uçmağa tək qanadı çatmırdı. Anasının gözlərindəki yaşı görən Əlihüseyn, "Ana, niyə ağlayırsan? Mən hərbi xidmətə getməliyəm, hamı kimi vətənə olan borcumu ödəməliyəm. Axı bu məhəbbəti, Vətən borcunu ödəmək hissini mənə siz aşılamısız. İndi isə xeyir-dua ver. Söz ver mənə, işdir birdən ölsəm, mənim üçün ağlama. Sənin göz yaşlarına dözə bilmədiyimi bilirsən axı...", - deyib onu bağrına basır.

### "İstəmirəm ki, şəhid anasını dərddən beli bükülmüş görsünlər"

Beləliklə, 2020-ci ilin yayında Əlihüseyn hərbi xidmətə yollanır. Onun xidmət etdiyi hərbi hissə uzaq rayonda yerləşdiyi üçün valideynlərinə əziyyət verməmək məqsədilə yanına gəlmələrini istəmirdi. Buna baxmayaraq, valideynləri onu görməyə gedirlər. Özü də bu görüşün Əlihüseynlə son görüşləri olacağından xəbərsiz...

Sentyabrın 27-də, işğal altında olan torpaqlarımız uğrunda əks-həmlə əməliyyatı başlayanda Əlihüseynin anası özünə yer tapmır. Çünki övladını yaxşı tanıyırdı. Bilirdi ki, o, qərar tutub yerində qalmayacaq, heç hərbi xidmətdə təcrübəsinin az olmasına da məhəl qoymayacaq. Könüllü olaraq komandirinə döyüşə getmək istədiyini deyəcək...

Hər gün böyük həyəcanla telefon zəngini gözləyən ana oktyabrın 7-si sonuncu dəfə övladının səsini eşidir. Arzu xanım Əlihüseyn ilə o son dialoqunu belə xatırlayır: "Çox sevincli idi. Sanki nəsə qazanmışdı və onun sevincini yaşayırdı, qürurla danışırdı, "Yaxşıyam, ana, narahat olma" deyirdi".

Amma ana narahat olur. Bu da əbəs deyilmiş. Oktyabrın 9-u Əlihüseynin şəhadət xəbəri gəlir, həmin gündən dünyası qaralır.

Arzu xanım deyir ki, övladının bir daha dönməyəcəyini bilsə də, ürəyi bunu qəbul etmir, hələ də Əlihüseynin yolunu gözləyir: "Hər gün işdən gələndə gözüm onu axtarır. Başıma qara da bağlamıram. Bağlasam, onun yoxluğunu qəbul etmiş olaram. Ağlamamağa çalışıram, çünki istəmirəm şəhid anasını aciz, sıxılmış, dərddən beli bükülmüş görsünlər. Əksinə, şəhid anası güclü, mərd, qorxmaz, yenilməz olmalıdır. Əgər övlad itkisinə dözə bilirsə, demək hər şeyə gücü çatar".

### Gözün arxada qalmasın, şəhidim

Əlihüseyn Məmmədov 2020-ci il oktyabrın 9-da Füzuli-Cəbrayıl-Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı Vətən borcunu şərəflə yerinə yetirmiş, igidliyi və şücaəti nümayiş etdirmiş Əlihüseyn Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Gözün arxada qalmasın, şəhidim. Başladığın yolu silahdaşların şərəflə bitirdi. 30 ildir həsrətini çəkdiyimiz torpaqlarımız düşmən tapdağından azad olundu.

Ruhun arxayın dolaşsın vətənin aydın səmalarında, bizə əmanət etdiyin əzizlərinin istiqbalında.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Şərəfli döyüş yolundan bəhs edən kitab




Əməkdar jurnalist Faiq Qismətoğlunun illərdir mətbuatda ölkəmizin ictimai-siyasi həyatında, xüsusən də boya-başa çatdığı Füzuli rayonunda, bütövlükdə Qarabağ bölgəsindən baş verən hadisələr haqqında qələmə aldığı bədii-publisistik yazıları oxucular tərəfindən maraqla qarşılanır. Onun vətənpərvərlik mövzusunda çoxlu hekayələri, portret oçerkləri, publisistik məqalələri var.

Faiq Qismətoğlu şəhid Elçin Süleymanovun döyüş yolundan bəhs edən məqaləsinin kitab variantını işləyərək "Dünyanın o üzü"nü (Bakı-2023, "Maarif" nəşr, 128 s.) II Qarabağ savaşı başlamasının üçüncü ildönümü ərəfəsində geniş oxucu auditoriyasına təqdim etmişdir. Kitabın ön söz əvəzi "Torpağa daman şəhid qanı..." tanıtmasında müəllif yazır: "...O qan elə-belə qan deyil. Əgər torpağa şəhid qanı damırsa, o torpaq başdan-başa Vətən olur, yurd olur, ocaq olur... Onlar bu döyüşlərdə öz qanları ilə yeni tarix yazdılar. Qanla yazılan tarixi isə zamanın heç bir seli, suyu, yağışı, zəlzələsi, tufanı, qasırğası silə bilməz!.."

Çox təbii, səmimi deyimdir. Ümumiyyətlə, jurnalistika yaradıcılığında səmimiyyət, obyektivlik Faiq Qismətoğlunun yazı tərzinin ana xəttini təşkil edir. Bu da illərin sınağında öz təsdiqini tapmış həqiqətdir ki, qeyri-səmimi publisistin qələmi uğurlu ola bilməz. Bu mənada "Dünyanın o üzü" rəvan dili ilə qəlbləri oxşayır...

Füzuli rayonunun igidləri də şanlı Azərbaycan Ordusunun sıralarında öz qanları ilə yurdumuzu, elimizi azad ediblər və möhtəşəm tarix yazıblar. Müəllifin dediyi kimi: "Böyük Bəhmənli Qarabağ uğrunda gedən döyüşlərdə 62 şəhid verib! 62 şəhid deyirəm, ha! 62 ucaboylu oğlan, 62 aslan biləkli igid, 62 palıda, çinara bənzər ər oğullar!" Onlardan biri də kitabda ömür və döyüş yolu haqqında genişliyi ilə söhbət açılan şəhid Elçin Süleymanovdur. O, İkinci Qarabağ savaşı başlayan andan - yəni 27 sentyabr 2020-ci ildən Füzuli və Cəbrayıl istiqamətində gedən ağır döyüş əməliyyatlarında erməni işğalçılarına qarşı mərdliklə vuruşub. Sentyabrın 30-da düşmən qüvvələri tərəfindən döyüş mövqeyinə atılan artilleriya mərmisi nəticəsində bir neçə döyüşçü yoldaşı ilə birgə Elçin Tehran oğlu Süleymanov şəhid olub.

Kitabda şəhidin barəsində müəllimlərinin, məktəb yoldaşlarının, kənd ziyalılarının, eləcə də doğmalarının söylədikləri insanın ürəyini silkələyir.

Ümidvarıq ki, nəfis tərtibatla hazırlanan "Dünyanın o üzü" oxucuların stolüstü kitabına çevrilməklə, gənclərin vətənpərvərlik ruhunda böyüməsində böyük rol oynayacaq.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Qarabağın erməniəsilli əhalisini təhlükəsiz gələcək, əmin-amanlıq gözləyir

## Bunun üçün mərkəzi hakimiyyət nə lazımdırsa edir

Azərbaycan Ordusunun yüksək peşəkarlığı nəticəsində Qarabağda separatçılara qarşı keçirilən lokal xarakterli antiterror əməliyyatı qısa müddətdə yekunlaşdı. Məqsəd Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində qanunsuz erməni silahlı birləşmələrinin terror-təxribat əməllərinə son qoymaq və onları tərk-silah etmək idi. 23 saat 43 dəqiqə ərzində qəhrəman hərbçilərimiz buna nail oldular. Artıq Qarabağın bütün ərazilərində azadlıq günəşi parlayır.

Həyata keçirilən tədbirlər Ermənistan silahlı qüvvələrinin otuz il ərzində Qarabağın bir çox yerlərini silah anbarına çevirdiklərini göstərir. Dünyanın ən gözəl yerlərindən olan Azərbaycanın Qarabağını, Şərqi Zəngəzurunu əsarətdə saxladığı illər Ermənistan yalnız buna çalışdı. İşğalçı olduğunu, özgə torpaqlarında əbədi qalmayacağını bildiyi üçün meyli, marağı, fəaliyyət istiqaməti qurub-yaratmağa yönəlməmişdi. Səngərlər qazdılar, silah-sursat yığdılar. İndi peşəkarlığı, igidliyi, cəsurluğu, eyni zamanda humanistliyi ilə nümunə olan Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağın müxtəlif yerlərində Ermənistan silahlı qüvvələri birləşmələrinə məxsus döyüş texnikası, hərbi avadanlıqlar, eləcə də raket, artilleriya mərmiləri və minalar olan anbarlar aşkarlanaraq müsadirə edilir.

Bölgədə yaşayan erməniəsilli əhaliyə yalnız qorxu, həyəcan gətirən, təhlükə yaradan Ermənistan dövlətinin himayə etdiyi qanunsuz kriminal xunta rejimini müzəffər Azərbaycan Ordusu diz çökdürdü.

Azərbaycan dövləti hər zaman bəyan edib ki, məqsədi sülhə nail olmaq, əmin-amanlıq yaratmaqdır. Dövlətimiz, xalqımız müharibə istəmir. Döyüşməyə məcbur olduqda isə bizim silahlarımız yalnız terroristlərə, təxribatçılara tuşlanır. Erməni silahlı qüvvələrindən fərqli olaraq, mülki əhalini hədəfə almırıq. Sentyabrın 19-dan 20-dək aparılan lokal xarakterli antiterror əməliyyatları həm də bu mənada ibrətamizdir. Düşmənlər uzun müddət davam etmiş işğal səbəbindən bölgənin çətin relyefinə daha yaxşı bələd idi və illər boyu mühəndislik işləri nəticəsində istehkamlar qurmuşdular. Bu günlərdə aşkarlayıb müsadirə etdiyimiz silah-sursatlar düşmənin cəbbəxanalarının da "zəngin" olduğunu təsdiqləyir. Lokal xarakterli antiterror əməliyyatlarını belə bir şəraitdə aparan Azərbaycan Ordusu mülki əhalinin təhlükəsizliyinə, ərzaq və tibbi vəsait təminatlarına son dərəcədə diqqətlə, həssaslıqla yanaşdı. Yalnız legitim hərbi hədəflər sıradan çıxarıldı.

Azərbaycanın sülhə, sabitliyə, əmin-amanlığa nail olmağa səy göstərdiyi bu bölgəsində yaşayacaq əhalini də bundan sonra dinc, rahat günlərin gözlədiyini Prezident İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində bir daha diqqətə çatdırdı: "Onların bütün hüquqları təmin ediləcək - təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları. Yəni Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi - Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax bu gözəl ab-hava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik. Biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq".

Azərbaycanın işğaldan azad olunan bütün əraziləri - Qarabağı və Şərqi Zəngəzuru yenidən qurulur. Ermənistanın otuz il dağıtdığı, xarabalığa çevirdiyi yaşayış məskənlərimizdə tikinti, quruculuq işləri sürətlə həyata keçirilməkdədir. Dövlətimizin başçısı İlham Əliyev bildirmişdi: "İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu, bizim əlimizdədir. Ona görə bizim təklifimiz budur və bu gün dönüş nöqtəsi idi. Xunta, qansoran zəlilər artıq tamamilə ifşa olundu və təslim oldu. Onlar ağ bayraq qaldırdılar!"

Lokal xarakterli antiterror tədbirləri başa çatan kimi, Azərbaycan tərəfi məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başladı. Sentyabrın 21-də Yevlaxda, sentyabrın 25-də isə Xocalıda mərkəzi hakimiyyətin nümayəndələrinin Qarabağ ermənilərinin təsmilçiləri ilə görüşü keçirildi. Hər iki görüş konstruktiv və müsbət mühitdə baş tutdu. Bundan sonra Qarabağ bölgəsində yaşayan erməni sakinlərin müraciətləri nəzərə alınaraq onların ehtiyaclarının təmin olunması üçün humanitar yardımlar göstərilməyə başlanıldı.

Qarabağda erməniəsilli əhalinin yaşamaları üçün heç bir problem yoxdur. Bölgədə qalmaq və ya getmək onların öz seçimidir. Qarabağda qalmaq istəməyən erməniəsilli sakinlərin Laçın sərhəd-buraxılış məntəqəsindən maneəsiz keçidi təmin olunur. Ermənistan istiqamətində hərəkət edənlər könüllü şəkildə getdiklərini, heç bir təhlükə və təhdid ilə qarşılaşmadıqlarını, onlarla çox yaxşı davranıldığını bildirirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Paşinyan sərt tədbirlər görmək qərarına gəlib

## Müxalifət arasında artıq parçalanmalar başlayıb

İrəvanda neçə gündür ki, revanşistlərin təşkilatçılığı ilə baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən etiraz aksiyaları davam edir.

Geniş əhali kütləsi tərəfindən başlanan etiraz aksiyaları fonunda getdikcə dramatikləşən hadisələr hakimiyyətin mövqeyini də zəiflətməkdədir. Buna rəğmən Paşinyan qarşı tərəfə daha sərt formada müqavimət göstərmək qərarına gəlib. Bu fonda daxili savaş ehtimalı daha sürətlə yüksəlməkdədir.

İrəvanın mərkəzində baş nazir Nikol Paşinyanın istefasını tələb edən keçmiş hərbi xunta təmsilçiləri ilə polis arasında qarşıdurma yaşanıb. Polis Opera Teatrının yaxınlığında Fransa meydanında mitinq keçirilməsinə icazə verməyib, buna cəhd edən bir çox insan saxlanılıb. Böyük kütlə İrəvanın Azadlıq meydanından baş nazirin iqamətgahına yürüş təşkil edib, amma polis yolları bağlayaraq aksiyaçıları meydana buraxmayıb.

Aksiyaçılar "Paşinyan, get!", "Müstəqil Ermənistan", "Ermənilər, birləşin!" şüarları səsləndiriblər. Mitinqlərdə ictimai-siyasi şəxslər, fəallar, vəkillər və başqaları iştirak ediblər.

Ən maraqlı məqam isə Hayastanın müxalifət düşərgəsində ciddi fikir ayrılıqlarının yaranmasıdır. Artıq müxaliflər bir-birilərini ittiham etməyə başlayıblar. "Hraparak" qəzetinin xəbərinə görə, müxalifətin yaratdığı Milli Komitədə ciddi fikir ayrılıqları yaranıb. Vazgen Manukyan isə bitib-tükənməyən yürüşlərlə müxalifətin fəaliyyətini dəyərdən salmaqdansa, konkret addımlar atmağı təklif edib. Amma digərləri məsuliyyəti öz üzərinə götürməkdən çəkinərək qeyd ediblər ki, Paşinyan kürsü uğrunda qan tökməyə hazırdır və bu qan onların üzərində qalacaq. Milli Komitə Paşinyanı tənqid etmədiyinə görə Avetik Çalabyandan narazı qalıb və Tevanyanın çıxışında isə qüsurlar aşkarlayıb.

Qeyd olunur ki, komitə yaradılsa da, müxalifət bəyanatlar verilməsində belə razılaşa bilmir və bu, hakimiyyətin əleyhdarlarının mitinqlərinin təxirə salınmasına səbəb olur.

Başqa bir məlumata görə, müxalifət düşərgəsində həbslərin aparılması planlaşdırılır. Qeyd olunur ki, kütləvi etiraz aksiyalarının qarşısını almaq üçün hakimiyyət xüsusi plan hazırlayıb. Buraya müxalifət fəallarına qarşı güc tətbiq edilməsindən tutmuş, onların mitinq keçiriləcək ünvana daxil olmazdan əvvəl müvəqqəti həbsinə kimi müxtəlif sərt tədbirlər daxildir. O da vurğulanır ki, bu işə təkcə polis yox, digər güc strukturlarının və hakimiyyətin nəzarətində olan xüsusi cəza dəstələrinin nümayəndələri də cəlb ediləcəklər.

Göründüyü kimi, müxalifətin daxilində parçalanma var. Bununla belə aksiyalar davam edir. Dünən təşkil edilən etiraz aksiyalarında polisin müdaxiləsi nəticəsində 80-dən çox insan yaralanıb. Onlardan bəzilərinin vəziyyəti ağırdır. Hadisə yerinə çoxlu sayda "qırmızı beretlilər" cəlb edilib. Onlar etirazçıları nazirliyin binasından uzaqlaşdırmağa cəhd ediblər. Müxalifət tərəfdarları polisin tövsiyə və əmrlərinə tabe olmaq istəməyiblər. Bundan sonra etirazçılar əl-ələ verərək polis əməkdaşları kimi "insan divarı" yaradaraq onları geri itələyiblər.

Müxalifət ciddi siyasi təzyiqlərə məruz qaldığını bəyan edib. Bildirilir ki, vətəndaş itaətsizliyi aksiyalarının təşkilatçıları sosial şəbəkələrdə paylaşım edərək tərəfdaşlarının nəzarətə götürüldüyünü, müxalifətçilərin mənzillərində axtarışların aparıldığını bəyan ediblər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# REGİONLAR

## Qarabağın işğaldan azad olunmasında şəmkirli gənclər də nümunə göstərmişlər

**Şəmkirdə 27 Sentyabr Anım Günü ilə əlaqədar keçirilən tədbir 50 metr uzunluğunda Azərbaycan bayrağının rayon mərkəzindən Şəhidlər xiyabanına gətirilməsi və burada Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən əsgər və zabitlərimizin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə əklil qoyulması ilə başladı.**

Mərasimdə çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev diqqətə çatdırdı ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan uğur ordumuzun əsgər və zabitlərinin misilsiz qəhrəmanlığını, hərbi şücaətini nümayiş etdirdi: "2023-cü il sentyabrın 19-20-də qanunsuz erməni hərbi birləşmələrinin tərk-silah edilməsi üçün keçirilən lokal xarakterli antiterror tədbiri isə Silahlı Qüvvələrimizin növbəti uğuru oldu. Ordumuzun yüksək peşəkarlığı sayəsində qısa müddətdə düşmənin hərbi birləşmələri üzərində böyük qələbə qazanıldı".

RİH-nin başçısı onu da qeyd etdi ki, Ali Baş Komandanın rəhbərliyi ilə aparılan istər Vətən müharibəsində və istərsə də lokal antiterror tədbirində əsas vəzifəni yerinə yetirən gənc nəsil arasında şəmkirli gənclər də var idi.

Sonra Milli Məclisin deputatı Kamran Bayramov çıxış edərək Azərbaycanın tarixi zəfərinin əldə olunmasında xalqımızın həmrəyliyindən, əsgər və zabitlərimizin keçdikləri döyüş yolundan, göstərdikləri şücaətlərdən danışdı.

Tədbir şəhid övladlarının təqdimatında nümayiş etdirilən ədəbi-bədii kompozisiya ilə yekunlaşdı.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Erməni separatçıları tərəfindən dağıdılan ev muzeyə çevrilmişdir

**Tərtərdə 27 Sentyabr Anım Günü ilə bağlı yaddaqalan tədbir keçirilmişdir. 44 günlük Vətən müharibəsində erməni separatçıları tərəfindən atılan "Smerç" raketi nəticəsində şəhər sakini Sahib İsmayılova məxsus dagılmış ev muzeyə çevrilmişdir.**



Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatı və Ağsaqqallar Şurasının sədrləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə veteranları, rayon ictimaiyyətinin nümayəndələri muzeydə olmuşlar. M.Məmmədov çıxış edərək bildirmişdir ki, Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə təsis edilən Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir: "Vətən müharibəsi bizim şanlı tariximiz, şəhidlər və qazilər qürur mənbəyimizdir. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirib. Azərbaycan Ordusunun əks-hücumları qarşısında aciz qalan düşmənin günahsız mülki insanları hədəfə alması, çoxsaylı müharibə cinayətləri xalqımızın qələbə əzmini sarsıda bilməyib. Biz qurtuluş savaşında minlərlə şəhid vermişik, həmvətənlərimiz arasında itkin düşənlər, yaralanaraq sağlamlığını itirənlər var. Torpaqlarımız işğaldan qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı-canı bahasına azad edilib. Müzəffər ordumuzun bu gün yazdığı tarix sabahımız üçün möhkəm bünövrədir".

Qeyd olunmuşdur ki, 44 gün ərzində Tərtər şəhərinə və onun yaşayış məntəqələrinə 16277 top, tank, qrad mərmisi düşmüş, 21 qadağan olunmuş raket atılıb: "Həmin qadağan olunmuş raketlərdən biri - "Smerç" raketi bu gün ermənilərin mülkü insanlara qarşı törətdiyi terrorun sübutu kimi Sahib İsmayılovun açıq havada muzey kimi fəaliyyət göstərən evinə düşmüşdür. Bax budur erməni vəhşiliyi, dinc sakinlərə qarşı törədilən terror aktı".

O da xatırlanmışdır ki, Vətən savaşı zamanı rayonun infrastrukturuna da güclü ziyan dəymiş, o cümlədən 12 körpələr evi-uşaq bağçası, 16 ümumtəhsil, 10 tibb, 7 mədəniyyət müəssisəsi, məscid və inzibati binalar, 83 çoxmərtəbəli yaşayış və 5344 fərdi yaşayış evi dağılmış, yaxud bu və digər formada zərər çəkmişdir. Tərtər 44 günlük Vətən müharibəsində həmçinin 46 hərbi, 16 mülkü şəhid vermişdir.

Milli Məclisin deputatı Sahib Alıyev də bildirmişdir ki, Ermənistanın 2020-ci il sentyabrın 27-də ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi üçün başladığı Vətən müharibəsi şanlı qələbə ilə başa çatdı: "30 ilə yaxın işğal altında olan torpaqlarımız şəhidlərimizin - əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi. Amma məğlub olmuş düşmən yenə də təxribatlardan əl çəkmirdi. Sentyabrın 19-20-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan lokal antiterror tədbiri erməni separatizminə birdəfəlik son qoydu".

Sonda tədbir iştirakçıları muzeyin həyətində mülki şəhidlərin şəkillərindən ibarət yeni yaradılmış fotoguşəni ziyarət edərək önünə gül-çiçək dəstələri düzmüşlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## İnnovativ aqrar festivallar fermerlərin müasir texnologiyalara əlçatanlığını təmin edir

Müasir zamanda kənd təsərrüfatının dinamik inkişafının təmin edilməsi aqrar sahədə innovasiyaların tətbiqi ilə bağlıdır. İnnovasiyalar iqtisadiyyatın aqrar sektorunda istehsalın texniki, texnoloji və təşkilati əsaslarının yeniləşməsi üçün baza yaradır və məhsuldarlığın artırılmasında, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsində böyük rol oynayır.



Kənd təsərrüfatında innovasiyaların tətbiqi aqrar sahədə əsasən torpaq və su resurslarını qorumağa və ondan səmərəli istifadə etməyə əlverişli imkanlar yaradır. Bu baxımdan kənd təsərrüfatında innovasiyaların geniş yayılması qlobal miqyasda ərzaq təhlükəsizliyinin təmin edilməsinə də xidmət etmiş olur ki, bu da ekoloji tarazlığın gözlənilməsinin mühüm amillərindən biridir.

İnnovasiya insanın intellektual fəaliyyətinin, eləcə də kəşflərinin, ixtiralarının son nəticəsi olan yenilənmə, yaxşılaşma və sürət deməkdir. Cəmiyyət innovativ texnika ilə nəinki keçmişi, uzaq gələcəyi belə "görə" bilir. İqtisadiyyatın bütün sahələrində istifadə olunan yüksək texnologiyalar, müasir avadanlıqlar cəmiyyətin inkişaf strategiyasının göstəricisidir. Deyilənləri aqrar sektora da şamil etmək olar. Çünki kənd təsərrüftında tətbiq edilən hər bir innovasiya məhsuldarlığı, gəlirləri artırır. Məsələn, dronlardan istifadə, "ağıllı bağ", müasir əkin üsulları, zərərvericilərə qarşı müasir bioloji mübarizənin təşkili, biotexnologiya laboratoriyalarında virussuz toxum və tinglərin yetişdirilməsi, əkin sahələrinin koordinatlarının və sahədə hansı məhsulun əkilməsinin peyk vasitəsilə müəyyənləşməsi və s. son illərin innovativ yenilikləridir.

Bu siyahıya Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tətbiq edilən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemini də (EKTİS) əlavə etmək olar. Adıçəkilən sistem kənd təsərrüfatında təkcə innovasiyaların tətbiqinə kömək etmir, həm də bir çox hədəflərə nail olmağa imkan yaradır. Həmin hədəflər kənd təsərrüfatına yararlı olan torpaqların və digər təbii resursların idarə edilməsi, bütün istiqamətlər üzrə dövlət siyasətinin həyata keçirilməsinə innovativ dəstək verilməsi, həmçinin informasiya və məsləhət xidmətlərinin effektivliyinin yüksəldilməsi kimi amillərin təmin olunmasıdır. Bir sözlə, aqrar sahə üzrə vahid məlumat bazasının yaradılması bu sahənin gələcək inkişafında və idarə olunmasında olduqca önəmli faktordur.

Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi 2021-ci ilin noyabrından keçirilən innovasiya festivallarında da böyük rol oynayır. Bəri başdan deyək ki, bu festivallar ölkənin qida təhlükəsizliyinin təmin olunması istiqamətində atılan faydalı və gərəkli addımlardır. Müxtəlif zamanlarda müxtəlif bölgələrdə keçirilən belə festivalların əsas məqsədi regionlarda yaşayan yeni texnologiyalara əlçatanlığını təmin etməkdir. Bu tədbirlərdə təkcə texnologiyalar nümayiş olunmur, həm də "ağıllı kənd təsərrüfatı" təlimləri keçirilir, məhsullar setifikatlaşdırılır, aqrar sektorun yenilikləri və problemləri ilə bağlı müzakirələr keçirilir, yeni texnologiyalar haqqında məlumatlar verilir, eləcə də fermerlər və sahibkarlar arasında işgüzar əlaqələrin qurulması istiqamətində müəyyən addımlar atılır. İnnovativ festivalların bir üstünlüyü də odur ki, burada yeni-yeni layihələr təqdim olunur, uğurlu təcrübələr bölüşdürülür.

Azərbaycanda keçirilən müxtəlif formatlı festivallardan fərqli olaraq aqrar fesivallarda nümayiş olunan kənd təsərrüfatı təyinatlı innovativ məhsullar fermerlər arasında rəqabət qabiliyyətinin yüksəlməsinə təkan verir. Belə innovativ tədbirlər aqrar sahədə innovasiyaların tətbiqi proseslərinin sürətləndirilməsinə, yeni məhsulların optimallaşdırılmasına, istehsal və emal müəssisələrinin rəqabət qabiliyyətinə müsbət təsir edir. Artıq ənənə halını almış bu festivallarda elektronlaşdırma və rəqəmsallaşdırma əsas xətt kimi götürülür. Ümumiyyətlə, bu qəbildən olan tədbirlərdə toxum-satış yarmarkaları, kənd təsərrüfatında ixtisaslaşmış çoxsaylı şirkətlər tərəfindən texnika, aqreqatlar, pilotsuz uçuş aparatları, əkin materialları sərgilənir, innovativ həllərə əsaslanan və resurslara qənaət edən mütərəqqi suvarma qurğuları, torpaqbecərmə alətləri, rayonlaşmış yeni kənd təsərrüfatı bitki sortlarının toxumları, heyvan cinsləri, gübrə və pestisidlər nümayiş olunur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Daşkəsən arıçıları qışa hazırlaşırlar

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin təşkilatçılığı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə həyata keçirilən "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi çərçivəsində fermerlər üçün növbəti təlim təşkil edilmişdir.**



Arıçılıq təsərrüfatlarının qış mövsümünə hazırlığı məqsədilə təşkil edilən təlimdə Çovdar, Quşçu ("Şadax" adlanan ərazi daxil olmaqla) və Bayan kəndində fəaliyyət göstərən fermerlər iştirak ediblər. Fermerlər layihə çərçivəsində cəlb edilmiş ekspert tərəfindən arı ailələrinə payız mövsümündə qulluq qaydaları, arıların qış mövsümündə xəstəliklərdən qorunması və ziyanvericilərlə mübarizə tədbirləri mövzularında maarifləndirilmiş və bu mövzuda metodiki təlimat bukletləri ilə təmin olunmuşlar.

Qeyd edək ki, "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi artıq ikinci ildir həyata keçirilir. Əsas məqsəd "AzerGold" QSC-nin hasilat və istehsalat fəaliyyəti həyata keçirdiyi "Çovdar" qızıl mədəni yaxınlığında yerləşən kənd və digər yaşayış məntəqələrinin sakinlərinin təsərrüfat fəaliyyətlərinin dəstəklənməsi ilə bölgədə kiçik sahibkarlığın inkişafına töhfə verməkdir. İlk dəfə 2022-ci ildə icra edilən layihədən Daşkəsən rayonunun Çovdar, Bayan, Quşçu və Zəylik kəndlərinin 24 arıçı fermeri faydalanmışdır. Builki layihəyə isə Çovdar, Quşçu ("Şadax" adlanan ərazi daxil olmaqla) və Bayan kəndlərindən olan 32 fermer cəlb edilmişdir. Ümumilikdə 2 il ərzində layihəyə cəlb edilmiş 56 fermerə tam təchiz edilmiş 216 arı ailəsi, arı yeşikləri və digər zəruri ləvazimatlar təqdim olunmuşdur. Bundan başqa, arıçıların tədarük etdikləri balın istehsal prosesini asanlaşdırmaq üçün Çovdar, Bayan, Quşçu kəndlərində balsüzən dəzgahlar quraşdırılmışdır.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## M-1 magistral avtomobil yolunun bir hissəsində aparılan təmir-bərpa işləri yekunlaşıb

"Şimal-Cənub" nəqliyyat dəhlizinin bir hissəsini təşkil edən, yük və sərnişin daşınmasında böyük rolu olan M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun Bakı-Quba istiqamətində deformasiyaya uğramış 5 km-lik hissəsinin yenidən qurulması işləri yerinə yetirilib.



Artıq sözügedən yolun yenidən qurulan hissəsi sürücülərin istifadəsinə verilib.

Təmir-bərpa işləri avtomobil yolunun 52-119.5 km-də 3 hissədə aparılıb. Yenidənqurma işləri avtomobil yolunun 52-53.5, 100.25-102.75 və 107-108.25-ci km-lik hissələrini əhatə edib. Sözügedən hissələr üzrə beton örtüyün sökülməsi və kənarlaşdırılması, yararsız materialların qazılması və kənarlaşdırılması, karxana materiallarının daşınması və sərilməsi, yol geyiminin alt qatının sərilməsi və kipləşdirilməsi, yeni asfalt-beton örtüyün sərilməsi işləri görülüb.

Qeyd edək ki, bu istiqamətdə nəqliyyat axının intensivliyi, həmçinin təmir-bərpa işlərinin avtomobil yolu ilə hərəkət edən vətəndaşlara yaşada biləcəyi diskomfortu nəzərə alaraq işlər ərazilər üzrə hissə-hissə olmaqla icra olunub.

## Quba alması bağdan neçəyə satılır

**Qubanın alma bağlarında sentyabrın ikinci ongünlüyündən kütləvi məhsul yığımı başlayıb. Hazırda alma yığımının qızğın çağıdır.**

Toplanan meyvənin müəyyən hissəsi satış üçün yerli və paytaxt bazarlarına, eləcə də respublikamızın digər bölgələrinə göndərilir. Məhsulun böyük hissəsi isə xarici bazarlar üçün nəzərdə tutulub. Quba alması əsasən Rusiya bazarlarına göndərilir.

Hazırda keyfiyyətli almanın bağlardan topdansatış qiyməti 40-50 qəpik arasında dəyişir. AZƏRTAC xəbər verir ki, Quba rayonunun Alekseyevka kəndində bir hektar alma bağı olan Teymur Fərhadov bu il məhsuldarlığın yüksək olduğunu bildirib.

"Bizim bağda əsasən dədə-baba sortlardır - ağ və qırmızı palmet. Alma bağlarında məhsuldarlıq ötən ilə nisbətən daha yaxşıdır. Hazırda almanı bağlardan vaxtında toplamağa çalışırıq. Alma vaxtında yığılmasa yerə tökülə, havanın təsirindən çürüyə bilər. Əlavə işçi qüvvəsi də cəlb etmişik. Məhsulumuz əsasən Rusiya bazarlarına göndərilir. Seçmə alma 40-50 qəpikdir. Balaca, nisbətən zəif almanın yeşiyi 3-4 manatadır. Bizim bağda hər il 20 tona yaxın məhsul yetişir", - deyə təsərrüfatçı söyləyib.

Rayonun fermerləri və fərdi təsərrüfat sahibləri məhsulun vaxtında toplanması üçün qüvvələrini səfərbər ediblər. Alma yığımına bütün ətraf rayonlardan işçi qüvvəsi cəlb olunur. Günəmuzd işçilər almanın bir yeşiyini 70-80 qəpiyə toplayırlar.

Toplanan məhsul ilkin mərhələdə elə bağlarda çeşidlənərək qablaşdırılır. Bundan sonra meyvə fermerlərə məxsus xüsusi saxlanclara və rayonda fəaliyyət göstərən soyuducu anbarlara yığılır.

Şimal bölgəsinin alma bağlarında daha çox məhsuldarlığı ilə seçilən "Qolden" və "Simirenko" sortları yetişdirilir. İntensiv bağçılıqla məşğul olan bağbanlar isə "Qrani smit", "Fuji" sortlarına üstünlük verirlər.

Məlumat üçün bildirək ki, Qubada 14 min hektara yaxın alma bağı var. Hər il rayonun alma bağlarından 110-120 min ton məhsul yığılır.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
### *açıq tender elan edir*

Şəki şəhər 18 nömrəli 720 şagird yerlik tam orta məktəbin tikinti işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (25.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (25.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (25.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 25.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **02 noyabr 2023-cü il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **14 noyabr 2023-cü il saat 11:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **15 noyabr 2023-cü il saat 11:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# *DSX:* "Ruben Vardanyan Azərbaycandan Ermənistan istiqamətində hərəkət edərkən saxlanılıb"

Azərbaycan Respublikasının ərazisinə qeyri-qanuni gələrək qondarma "Dağlıq Qarabağ respublikasının dövlət naziri" vəzifəsində çalışmış 1968-ci il təvəllüdlü Ruben Karleni Vardanyan sentyabrın 27-də Laçın dövlət sərhədindən buraxılış məntəqəsində Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi qulluqçularının sayıqlığı nəticəsində Azərbaycan Respublikasından Ermənistan istiqamətində hərəkət edərkən saxlanılıb.




DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, R.Vardanyan Xidmətin Çevik Hərəkət Qüvvələri əməkdaşlarının müşayiəti ilə Bakı şəhərinə gətirilib.

Saxlanılan şəxs barəsində müvafiq qərar qəbul edilməsi üçün aidiyyəti dövlət orqanlarına təhvil verilib.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
### *açıq tender elan edir*

***Təkrar***

Goranboy şəhər R.Ağakişiyev adına İnteqrasiya təlimli internat tipli gimnaziya binasının sökülərək yenidən tikinti işlərinin satın alınması

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi-texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 19 oktyabr 2023-cü il saat 16:00-a, tender təklifi və tender təklifinin bank təminatını 27 oktyabr 2023-cü il saat 16:00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 30 oktyabr 2023-cü il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

# Hava əsasən yağmursuz keçəcək

Azərbaycanda sentyabrın 28-nə gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-21°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 millimetr civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 45-50 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 11-16°, gündüz 23-28° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 13-17° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz yüksək dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 13-18° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-17°, gündüz 23-28° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz yüksək dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 21-26° isti, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-19°, gündüz 25-30° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-18°, gündüz 22-27° isti, dağlarda gecə 11-14° , gündüz 16-21° isti olacağı gözlənilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və kollektivi Aparatın əməkdaşı

**ANAR NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Rasim, Fikrət və Rafiq Hüseynovlar, Akif və Rəşad Hacıyevlər, Şamo və Emin Mustafayevlər Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşı Eldar Həmzəyevə əzizi

**İBRAHİM HƏŞİM OĞLU ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**

**www.azerbaijan-news.az**



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5548**
**Sifariş 2489**

**Qiyməti 40 qəpik**